**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**MUSTAFAYEVA AYTƏN İNQLAB QIZI**

# BİOETİKA VƏ İNSAN HÜQUQLARI: NƏZƏRİ VƏ TƏCRÜBİ PROBLEMLƏR

**İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; İnsan hüquqları"**

Hüquq üzrə elmlərdoktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

# AVTOREFERATI

**Bakı-2014**



Dissertasiya işi Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir

**Elmi məsləhətçilər:** **R.F.Məmmədov**
*hüquq üzrə elmlər doktoru, professor*

**V.Q.Məmmədov**
*tibb üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **N.H.Əliyev**
*hüquq üzrə elmlər doktoru, professor*

**A.A.Merejko**
*hüquq üzrə elmlər doktoru, professor*

**A.A.Məhərrəmov**
*hüquq üzrə elmlər doktoru, professor*

**Aparıcı təşkilat:** **Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrası**

Dissertasiya işinin müdafiəsi «_01___» «__07___» 2014-cü il tarixli saat «_____» Bakı Dövlət Universitetinin nəzdində təşkil edilmiş BD.02.013dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Azərbaycan-1148, Bakı, akademik Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» __________2014-cü il tarixində göndərilmişdir.

**BD.02.013 Dissertasiya Şurasının**
**Elmi katibi,**
**hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.Məmmədov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir elmi təfəkkür təbiətə, insana və məişətə münasibətdə yeni üfüqlər açmaqdadır. Təbabətdə və yeni texnologiyalar texnikasında böyük miqyaslı kəşflər nəticəsində hüquqi, siyasi və tibbi xarakterli çoxlu sayda mürəkkəb və ziddiyyətli problemlər yaranmışdır. Təcrübələrin doğurduğu bioetik problemlər adlandırılan həll olunmamış çoxsaylı məsələlər ortaya çıxmışdır. Alfred Rubinin göstərdiyi kimi, cəmiyyət göstərilən məsələləri həll etmək iqtidarında olmadığından, bu problemləri düşünüb-daşınmağın zəruriliyi yaranmışdır. Ona görə də buna cavab olaraq son onilliklər ərzində yeni elmi istiqamət – bioetika formalaşmaqdadır[1].

Bioetikanın formalaşması çağdaş təbabətin və biologiyanın texnoloji cəhətdən yeniləşməsində baş verən nəhəng dəyişikliklərlə, eləcə də gen mühəndisliyi, orqanların köçürülməsi, biotexnologiya və xəstənin həyatının saxlanması kimi uğurlar qazanan tibbi-kliniki praktikanın köklü irəliləyişləri ilə şərtlənmişdir. Bütün bu proseslər həkim və pasiyent, xəstənin qohumları və tibbi heyətin qarşısında duran əxlaqi problemləri kəskinləşdirmişdir.

Bioetika problemini tədqiq edən əksər alimlərin fikrincə, bu anlayış fənlərarası xarakter daşıyan tədqiqat istiqaməti kimi ötən əsrin 60-cı illərinin axırlarında - 70-ci illərin əvvəllərində formalaşmışdır. "Bioetika" termini hələ 1969-cu ildə V.P.Potter tərəfindən təklif edilmişdir. Hazırda bu istilahın təfsir edilməsi çoxplanlıdır. Əvvəlcə, bəzi tədqiqatçılar (məsələn, B.Bolekker-Ştern) bioetikanın məzmununu "həkim - pasiyent" münasibətlərindəki etik problemlərlə məhdudlaşdıraraq, onu biotibbi etika ilə eyniləşdirməyə cəhd göstərirdilər[2]. Digərləri (Melinda Roberts və Devid Vasserman) bioetikaya daha geniş anlam verirlər. Bu, bir sıra aksioloji, sosial problemlər, habelə səhiyyə sistemi və insanın heyvanlara və bitkilərə münasibəti ilə bağlı problemləri əhatə edir[3].Üçüncülər isə (D.Şelton) bioetikanın formalaşmasını yeni texnologiyaların bəşəriyyətin həyat və

---

[1] Alfred P. Rubin. Ethics and Authority in International Law. Cambridge Studies in International and Comparative Law. № 19, 2007.p.165-197

[2] Bollecker-Stern B. The legal character of emerging norms relating to the new international economic order.Legal aspects of the new international economic order / By K. Hossain.L., 2007. p.74-93

[3] Melinda A.Roberts and David T.Wasserman.Harming Future Persons: Ethics, Genetics and the Nonidentity Problem.International Library of Ethics, Law, and the New Medicine.Vol. 70, 2009. p.211-234



sağlamlığına təsir etməsi ilə müəyyənləşdirirlər.Lakin son illər aparıcı beynəlxalq ekspertlər bioetikanın bir elm kimi insanın təbabət və biologiya sahəsində fəaliyyətinin mənəvi və hüquqi tərəflərini nəzərdə tutan ümumi tərifini nəzərdə tuturlar[1].

Bioetikanın yeni variantını təhlil edərkən, biz belə bir fikrə gəlirik ki, praktikanın yaratdığı yeni bioetik norma və standartları işləmək, razılaşdırmaq və ya təsdiq etmək lazımdır. Hazırda "qətlin əxlaqiliyi", həyatı qoruyub-saxlayan aparatların söndürülməsinin əxlaqiliyi", "beyinin kliniki ölümü", "insanın ürəyinin, qara ciyərinin və digər orqanlarının köçürülməsi" və s. kimi ictimai təfəkkür səviyyəsinə yüksəlmiş yeni terminlərlə kimisə təəccübləndirmək mümkün deyil. Bu məfhumlar həm alimlər üçün, həm də bu və ya digər ölkənin əksər vətəndaşları üçün adi, gündəlik sözlərə çevrilmişdir.

Ona görə də bəşəriyyətin və ayrı-ayrı dövlətlərin əxlaqi və mənəvi orientirlərin yeniləşmiş sistemini, yeni ruhi potensialı tapmaq arzusu yeni fənlərarası bilik sahəsində - bioetikada təcəssüm etmişdir.

Məlumdur ki, təkcə insanın həyat fəaliyyətini deyil, eləcə də onun xüsusiyyətlərini kökündən dəyişən yeni texnologiyaların sürətlə yayılması şəraitində bioetika insanın əsas dəyər və hüquqlarını – insanın yaşamaq hüququnu, muxtariyyət və seçim azadlığını müdafiə edir və artırır, onları həyata dərin hörmət və bütün canlılara görə mənəvi məsuliyyət kimi etik prinsiplərlə əsaslandırır[2]. Bioetika bir elm olaraq, birbaşa və dolayı yolla sağlamlığa və həyatın keyfiyyətinə ziyan vura bilən insanların maraqları və elm, biologiya, genetika, təbabət, əczaçılıq və s.in nailiyyətləri arasındakı ziddiyyətləri öyrənir.

Bu nailiyyətlərdən yalnız insanın və təbiətin rifahı naminə istifadə olunmanı təmin edən mənəvi və hüquqi (beynəlxalq-hüquqi də daxil olmaqla) norma, tələb, prinsip və digər mexanizmlərin işlənilməsi məqsədilə həyatın yeni çağırışlarına cavab verən və bioetikanın tərkib hissəsi olan tibbi hüquqda ümumiləşmiş yeni hüquq sahəsini inkişaf etdirmək lazımdır. Səhiyyə sistemi həyatın keyfiyyətinin yaxşılaşdırılmasına və bütövlükdə, cəmiyyətin inkişafına kömək edən və əhalinin həyat səviyyəsini əks etdirən bir göstəricidir və ona görə də hüququn bu sahəsinin ayrılmaz subyekti hesab ediləcək. Səhiyyənin əsas xidmətlərinin təmin edilməsi və inkişafı, vətəndaşların sağlamlıq hüququnun təmin

---

[1] Shelton D. Remedies in International Human Rights Law. L., Oxford, 1999. 433p.

[2] Hanfried Helmchen and Norman Sartorius. Ethics in Psychiatry: European Contributions. International Library of Ethics, Law, and the New Medicine.Vol.76, 2010. p.55-89.

edilməsi insan kapitalına sərmayə qoyulmasının birinci dərəcəli forması və dövlətin iqtisadi inkişafının mühüm amili olacaq.

Tədqiqatın aktuallığı əhalinin həyat səviyyəsinin, milli qanunvericiliyin təkmilləşdirilməsi və ondan istifadə üçün müvafiq beynəlxalq hüquqi bioetik normaların formalaşmasında ortaya çıxan bioetik problemlərin təhlilinin obyektiv zəruriliyi ilə müəyyən edilir. Bu sahədə yaranan problemlər beynəlxalq-hüquqi və milli-hüquqi nizamlama mexanizmi sahəsində elmi araşdırmaların yoxluğu ilə əlaqədardır. Özündə bazar və sosial elementləri birləşdirməyən, beynəlxalq-hüquqi standartlara söykənməyən mexanizm hazırda vəziyyətin yalnız pisləşməsinə səbəb olur[1].

Məlum olduğu kimi, dövlətlərin bioetikanın inkişafında birgə əməkdaşlıq etmək öhdəliyi BMT-nin əsas sənədlərində təsbit edilmişdir. Bu təşkilat sağlamlığın qorunması hüququnun bərqərar olması və inkişafı prosesinə böyük töhfə vermiş, bir sıra mühüm universal beynəlxalq-hüquqi aktlar qəbul etmişdir. Onlardan birincisi Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir[2]. 10 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən bu sənəd insan hüquqlarının təsdiqlənməsində əhəmiyyətli rol oynamış və bu gün də oynamaqdadır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində "insan şəxsiyyətinin dəyəri" (preambula) və hər bir insanın yaşamaq hüququ bəyan edilir (3-cü maddə). Bəyannamənin 25-ci maddəsində qeyd edilir: "Hər bir insan qidalanma, geyim, mənzil, tibbi xidmət və lazımi sosial xidmət də daxil olmaqla elə bir həyat səviyyəsi hüququna malikdir ki, özünün və ailəsinin sağlamlığını və rifahını təmin edə bilsin".

1966-cı ildə BMT Baş Assambleyası yeni mühüm aktlar qəbul etdi: İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt[3] və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt[4]. Bu sənədlərdə insan və vətəndaş hüquqlarının daha mükəmməl və təfərrüatlı siyahısı verilir. Hər iki pakt insan və vətəndaş hüquqlarının özünəməxsus beynəlxalq məcəlləsini təşkil etmişdir. Bu sənədlərdə hər bir insanın yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, şəxsi və ailə həyatının toxunulmazlığı və s. hüquqları bəyan edilir. İştirakçı dövlətlər isə öz üzərlərinə paktlarda nəzərdə tutulan hüquq və azadlıqların təmin edilməsi üzrə zəruri qanunvericilik tədbirlərinin

[1]Мустафаева А.И. Морально-правовые принципы и правила биоэтики. «Современные гуманитарные исследования». М., №1. 2010. с. 39-43
[2]Всеобщая декларация прав человека: Универсализм и многообразие опытов. М., ИГП РАН, 2009. 376с.
[3]Международное право в документах. М., Юрид. Лит., 2000. с.122-129
[4]Международное право в документах. М., Юрид. Лит., 2000. с.113-116



görülməsi öhdəliyini götürmüşlər. Bu vacib beynəlxalq-hüquqi aktlar sağlamlığın qorunması hüququnun əsasını qoymuşdur[1]. 1993-cü ildə YUNESKO-nun Bioetika üzrə Proqramının əsası qoyuldu, 2002-ci ildən isə bu proqram təşkilatın fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir. Proqramın reallaşmasında mühüm praktiki nəticələrdən biri 1997-ci ildə YUNESKO-nun Baş konfransının 29-cu sessiyasında qəbul edilmiş İnsan genomu və insan hüquqları haqqında Ümumi Bəyannamədir.

Qeyd etmək lazımdır ki, son elmi tədqiqatların, o cümlədən insan genomu sahəsində araşdırmaların bəşəriyyətin inkişafına təsir dərəcəsinin qiymətləndirilməli olması ilə bağlı fikri yekdildir. Bununla bağlı olaraq YUNESKO-nun bioetika üzrə proqramı ilbəil daha böyük əhəmiyyət kəsb etməkdədir. 2005-ci ildə YUNESKO-nun Baş konfransı Bioetika və insan hüquqları haqqında Ümumi Bəyannamə qəbul etmişdir[2].

Bioetika tarixində ilk dəfə olaraq 193 dövlət – təşkilatın üzvləri və beynəlxalq birlik bioetikanın bu sənəddə təsbit edilən əsas prinsiplərinə hörmət etmək və onları həyata keçirmək öhdəliyi götürmüşlər[3].

Bəyannamə təbabətlə bağlı etik məsələlərə, həyat haqqında elm və onunla bağlı insana uyğun texnologiyalara toxunur. Adından da göründüyü kimi, insan ləyaqətinə, insan hüquq və əsas azadlıqlarına hörmət göstərilməsini təmin edən normalarda təsdiq etdiyi prinsiplərə əsaslanır.

Məlum olduğu kimi, bioetikanı insan hüquqları və insan həyatına hörmət edilməsinin təminatı üzrə beynəlxalq normalarda təsbit edən Bəyannamə bununla da etika ilə bioetika sahəsindəki insan hüquqları arasında qarşılıqlı əlaqəni etiraf edir. YUNESKO-nun Baş konfransı Bəyannamə ilə yanaşı, qətnamə də qəbul etmişdir. Bu sənəd üzv-dövlətləri bu Bəyannamədə ifadə olunan prinsiplərin reallaşması məqsədilə hər cür cəhd göstərməyə çağırır, Bəyannamənin daha geniş yayılması da daxil olmaqla, onun gerçəkləşdirilməsi üzrə müvafiq tədbirlər görməyi təklif edir.

Müasir beynəlxalq münasibətlərin inkişafı açıq-aşkar sübut edir ki, insan hüquqları sahəsində sağlamlığın qorunması üzrə dövlətlərdaxili münasibətlər beynəlxalq-hüquqi nizamlamaların birbaşa obyektinə

[1]Международная защита прав и свобод человека. Сборник документов. М., Юрид. Л., 1990. с. 239-271
[2]Bioetika: sənədlər...Terminlər...Layihənin elmi rəhbəri və tərtibçi A.İ.Mustafayeva. Bakı, Elm, 2009. 236s.
[3]Məmmədov V.Q., Mustafayeva A.İ., Əhmədov İ. Bioetika məsələləri hüquqi qanunlar konteksində // "Özümüzü və dünyanı dərketmə yolunda". AMEA İnsan Hüquqları İnstitutunun elmi məqalələr toplusu, Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2011, s. 6-14

çevrilmişdir. İnsan hüquqları üzrə beynəlxalq norma yaradıcılığı sağlamlığın qorunması hüququnun təmin olunması obyekti kimi "sağlamlığın əldə edilən ən yüksək səviyyəsinə" əsaslanmaqdadır[1].

Sağlamlığın qorunması sahəsində beynəlxalq-hüquqi standartları insan hüquq və azadlıqlarını təsbit edən səlahiyyətli beynəlxalq orqan tərəfindən qəbul edilmiş sağlamlığın qorunması sferasında daha mütərəqqi beynəlxalq-hüquqi normalar kimi, bu hüququn təmin olunmasına qarant kimi, beynəlxalq əməkdaşlıq formaları kimi, həmçinin müxtəlif kateqoriyalı şəxslərə güzəştlər kimi müəyyənləşdirmək olar.

Məlum olduğu kimi, ötən əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında hüquqi dövlət üçün səciyyəvi olan münasibətlərin yaranması və demokratik hüquqlar uğrunda hərəkatın genişlənməsi ilə əlaqədar olaraq ictimaiyyətin, dövlət hakimiyyəti orqanlarının, tibb işçilərinin, əhalinin biotibbi etika (bioetika) adı alan biologiya və təbabətin geniş spektrli sosial, iqtisadi, etik və hüquqi problemlərinə marağı getdikcə daha da artmışdır[2].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığının qorunması sahəsində milli siyasət səhiyyə institutunun islahatı ilə əlaqədar kompleks tədbirlər nəzərdə tutur. Belə ki, 2011-ci il mayın 30-dan iyunun 3-dək Bakıda YUNESKO-nun Bioetika Komitəsinin 18-ci sessiyası keçirilmişdir. Tədbir Azərbaycan hökumətinin köməyi ilə Heydər Əliyev Fondunun, Milli Elmlər Akademiyasının, YUNESKO-nun AR üzrə Milli Komissiyasının təşkilati dəstəyi ilə təşkil edilmişdi. Sessiyada təbabətin humanistləşdirilməsi, tibb işçilərinin peşə birliklərinin etik özünütəfəkkürü, elmi tədqiqatların gedişində ortaya çıxan mənəvi kolliziyaların həllində müasir biologiyanın nailiyyətlərinə oriyentasiya, insanın həyata yeni münasibətini açan perspektiv və imkanların fəlsəfi cəhətdən əsaslandırılması, insanın və bioloji nümunələrin genetik məlumatlarının xüsusi statusunun müəyyənləşdirilməsi, etik, hüquqi və sosial nəticələr nəzərə alınmaqla, bu məlumatların işlənilməsi, saxlanması və istifadəsi zamanı dürüstlüyün, etibarlığın və keyfiyyətin təmin edilməsi

[1] Məmmədov V. MDB və Qərb ölkələrinin konstitusiyalarında sağlamlığın qorunması hüququ / "Hüquq elminin müasir problemləri" mövzusunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş III Respublika elmi-nəzəri konfransının materialları (14-15 mart). Bakı: Təknur, 2013, s. 32

[2] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 2002, s.55-59



və bioetik xarakterli bir çox problemlər nəzərdən keçirildi və müzakirə olundu[1].

Demokratik cəmiyyətlərdə bioetik sahədə beynəlxalq-hüquqi nizamlama tibbi hüquq və biotibbi etika ilə təmin edilir. Onların bir-biri ilə sıx bağlı olması aşkardır, lakin məhz necə - bu isə problemdir. Müasir Azərbaycan Respublikasında bu problem xüsusilə kəskindir, çünki həm hüquq sistemi, həm də səhiyyə sistemi islahat mərhələsindədir. Bundan başqa, tibbi hüquq özü də müstəqil hüquq sahəsi kimi hələ yenicə formalaşmaqdadır[2].

Təbabətdə etika və hüququn qarşılıqlı münasibətlərindəki metodologiya işlənib hazırlanmadığından, bu sahədə qanun yaradıcılığı uğurla həyata keçirilə bilməz. Bu halda beynəlxalq-hüquqi sənədlər tənzimləyici qismində çıxış edə bilər, lakin onlara da münasibət birmənalı deyil. Belə ki, Azərbaycan Respublikası Helsinki Bəyannaməsinə (1964-cü il və sonrakı redaksiyalar) qoşulsa da, Biotəbabətdə İnsan Hüquqları Konvensiyasına hələ də qoşulmayıb. Müvafiq qanunların olmadığı şəraitdə səhiyyə sahəsində normativ tənzimləmənin daimiliyi və qarşılıqlı əlaqəliliyi qanunaltı aktlarla, inzibati (idarə) direktiv sənədlərlə, biotibbi etikanın hüquqi adət, prinsip və qaydaları ilə təmin edilir .

Təbabətdə normativ nizamlamanın yalnız vahid etik-hüquqi sisteminin yaradılması cəmiyyətin digər sosial institutlarının yenidənqurulması şərti ilə təbabətdə islahatları tarazlaşdırmağa və xalqın sağlamlığının qorunması sahəsində dövlət siyasətini optimallaşdırmağa imkan verər.

Ənənəvi şəfqət, xeyriyyəçilik dəyərləri, pasiyentə ziyan vurulması, tibb işçilərinin mənəvi məsuliyyəti qətiyyən ləğv olunmur. Sadəcə olaraq, hazırkı sosial və mədəni şəraitdə onlar yeni məna və əhəmiyyət kəsb edirlər. Unikal və təkrarolunmaz şəxsiyyət olaraq fərdin mənəvi dəyərlərinə daha çox diqqət yetirilir. İnsanın muxtariyyəti ideyası, onun şəxsi həyatına aid olan ən mühüm qərarların müstəqil qəbul edilməsində ayrılmaz hüququ (beynəlxalq və milli qanunvericiliklə təsbit olunan) mənəvi təfəkkürün mərkəzində olur[3].

Hesab edirik ki, Azərbaycan Respublikasında biotibbi elmlərin nailiyyətlərinin tətbiqi sahəsində qüvvədə olan hüquqi baza hələ xeyli təkmilləşdirilməlidir. Bir çox məsələləri qüvvədə olan mülki, ailə və ya

[1] Каландарли Н. Биоэтика: вчера, сегодня, завтра. http://www.dem.az/content/view/2772/

[2] İlham Əliyev: Azərbaycanıma inanıram. Bakı, Azərnəşr, 2007, s. 12-15

[3] Медицина и права человека: Перевод с франц. М., Прогресс-Интер, 1992. с. 65-69

hansısa digər sahə qanunvericiliyi əsasında həll etmək mümkün deyil. Bioetik hüquq hüququn yeni sahəsi kimi hələ formalaşma mərhələsindədir. O, hüquqşünasların əksəriyyətinin bu sahənin milli, yaxud beynəlxalq hüquq sahəsi kimi ayrılmasının qanunauyğunluğunu ümumiyyətlə şübhə altına almasına görə “inkişaf çətinlikləri” ilə üzləşir. Lakin xaricdə bioetik hüquq aparıcı sahələrdən biri kimi nəzərdən keçirilir. Hazırda Azərbaycan Respublikasında biotibbi elmlərin inkişaf sürəti elmi tədqiqatların nəticələrinin praktiki tətbiqinin bioetik və hüquqi məsələlərinin işlənilməsini xeyli ötüb keçir.

Yaranmış şəraitdə biologiya və təbabət sahəsində son nailiyyətlərlə əlaqədar olaraq meydana çıxan münasibətlərin tənzimlənməsi məsələlərində beynəlxalq, konstitusiya və cinayət hüququnun yeri və rolunun araşdırılması böyük əhəmiyyət kəsb edir. Şübhəsiz, cinayət hüququ bazasında cinayət-hüquqi təsir vasitələrinin kifayət qədər məhdud imkanları var. Lakin cinayət hüququnun tərbiyəvi və profilaktik əhəmiyyətini qiymətləndirməmək mümkün deyil.

Deyilənlər hazırkı dissertasiya işinin mövzusunun aktuallığını müəyyən edir.

Beləliklə, Azərbaycan Respublikasının beynəlxalq, konsitusiya və cinayət hüququ elmində dissertasiya işinin mövzusu az işlənilmişdir.

**Tədqiqat mövzusunun elmi işlənmə dərəcəsi.** Hazırda dünya miqyasında bioetika üzrə çoxlu sayda tədqiqat işləri dərc olunmuşdur. Bioetik problemlər İ.V.Siluyanova, P.D.Tişenko, V.S.Baranov, N.P.Boçkov, A.P.Zilber, V.İ.İvanov, A.Y.İvanuşkin, V.L.İjevskaya və başqa filosof, sosioloqların əsərlərində daha çox işıqlandırılmışdır.

Hüquq elminə gəlincə, ayrı-ayrı elmi texnologiyaların: insanın orqan və toxumalarının transplantasiyası, süni mayalandırma və insan rüşeyminin implantasiyası, genetik (gen) mühəndislik və s.in hüquqi nizamlanması məsələlərinin araşdırılmasının sayca artdığını qeyd etmək lazımdır. Bununla belə, hüquqşünasların tədqiqatları arasında cinayət, mülki və ailə hüququ, həmçinin konstitusiya sahəsi mütəxəssislərinin əsərləri üstünlük təşkil edir. Bioetikanın hüquqi məsələləri M.İ.Avdeyev, İ.İ.Qorelik, S.Q.Stesenko, M.N.Malein, A.N.Krasikov, Q.N.Borzenkov, O.S.İvçenko (Kapinus), A.A.Malinovskaya, N.A.Marqatskaya, V.P.Salnikov, A.A.Tirski və digərlərinin əsərlərində öz əksini tapmışdır.

Qeyd edilməlidir ki, tibbi eksperimentlər də daxil olmaqla, insan üzərində elmi tədqiqatların hüquqi tənzimlənməsi məsələləri Ə.Əliyev, L.Hüseynov, N.S.Malein, M.N.Maleina, Y.O.Malyayeva, V.Məmmədov,



S.Q.Stesenko, V.İ.Samorokov, A.V.Serova, T.L.Şurdumov və başqalarının araşdırmalarında işıqlandırılmışdır.

Bioetikanın hüquqi problemləri Avrora Palmer, F.Aryes, N.Arsenyev, D.Ben-Aşer, Alfred P.Rubin, Ander den Ekster, J.Batay, Y.Boroday, J.Bodriyyar, K.Buse, Y.Vagin, D.N.Veystub, İ.Vişeb, D.Vukadinoviç, K.Qorov, P.Qureviç, Y.Davıdov, A.Demiçev, Ç.E.Donald, N.Draqer, M.İ.Kovalyov, S.Kotyer, S.Krinski, O.A.Krasovski, A.Kurayev, K.Li, R.Marqaret, O.Pas, V.Rabinoviç, V.Rozin, S.Ryazansev, J.P.Sartr, A.S.Semyonov, O.Suvorov, A.Surojski, B.Tobes, D.S.Tomasma, Q.F.Tomossi, L.Trequbov, M.Xaydegger, S.Xoruji, M.Eliade və digər müəlliflərin əsərlərində işlənilmişdir.

Azərbaycanda yeni texnologiyaların inkişafı ilə bağlı əmələ gələn etik və hüquqi problemlərin araşdırılması M.A.Əliyeva, C.Ə.Əliyev, A.Namazova, T.Tağızadə İ.Ə.Əhmədov, R.Xəlilov, B.A.Ağayev, E.Şahbazov, V.Məmmədov, A.Mustafayeva tərəfindən aparılmışdır.

Bioetikanı insan hüquqları kontekstində araşdıran alimlərə S.Foster, P.D.Jacobson, D.Harris, J.Conomy, L.Andreus, M.Mehlman, B.M.Meier, W.A.Shibles, A.Karmi, R.Beran, V.Məmmədov, A.Mustafayeva, Y.P.Ksilyayeva, Y.V.Jilinskaya, İ.A.İvannikov, İ.A.Rubanova, F.İ.Komarov, N.Y.Krılova, Q.Y.Lopatenkov, M.N.Maleina, Y.D.Sergeyev, Y.D.Pişitanı aid etmək olar.

**Dissertasiya işinin obyekti** insanın yaşamaq və sağlamlıq hüquqlarını təhlükə altına ala bilən müasir elmi texnologiyaların tətbiqinin bioetik-hüquqi problemləridir.

**Tədqiqatın predmeti** beynəlxalq-hüquqi aktların, həmçinin Azərbaycan Respublikası və digər dövlətlərin konstitusiya qanunvericiliyinin, səhiyyə sahəsində milli və xarici qanunvericiliyin müddəalarıdır.

**Dissertasiya işinin məqsədi** cəmiyyətdə mövcud olan aktual bioetik problemlərin aşkarlanması və onların tənzimlənməsi istiqamətində Azərbaycanın müvafiq milli qanunvericiliyinin beynəlxalq hüquqi normalara uyğunlaşdırılması yollarının göstərilməsidir.

Adı çəkilən məqsəd qarşıya **aşağıdakı vəzifələrin** qoyulmasını müəyyənləşdirmişdir:

– beynəlxalq hüquq elmi baxımından bioetika anlayışını və onun sosial-hüquqi normalar sistemindəki yerini müəyyənləşdirmək;

– bioetika sahəsində qüvvədə olan beynəlxalq-hüquqi sənədləri dissertasiyada nəzərdən keçirilən məsələlər üzrə təhlil etmək;

– bioetikanın beynəlxalq-hüquqi və milli-hüquqi prinsiplərini və normalarını tədqiq etmək;

– səhiyyə və biotəbabət sahəsində beynəlxalq-hüquqi normaları və onların milli hüquqda implementasiyası yollarını araşdırmaq;

– bioetika və insan hüquqları nisbətini və təsirini üzə çıxarmaq;

– insan və vətəndaşların yaşamaq və sağlamlıq hüquqlarının hüquqi tənzimlənməsinin səciyyəvi xüsusiyyətlərinin aşkarlanması;

– aktual bioetik problemlər üzrə hüquqi tənzimlənmə yollarının müəyyənləşdirilməsi;

– beynəlxalq hüquq və Azərbaycan Respublikası milli qanunvericiliyində sağlamlığın qorunması hüququnun təmin edilməsini tədqiq etmək;

– Azərbaycan Respublikası qanunvericiliyində bioetika məsələləri üzrə boşluqları üzə çıxarmaq və aparılmış tədqiqat əsasında onların təkmilləşdirilməsi üçün nəzəri müddəalar və praktik tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqatın metodoloji əsası.** Tədqiqat prosesində dərketmənin ümumelmi metodlarından: tarixi-məntiqi və dialektik, eləcə də xüsusi-elmi metodlardan: müqayisəli hüquqşünaslıq, sistemli analiz, hüquqi modelləşdirmə metodundan istifadə olunmuşdur.

Tədqiqatın nəzəri-metodoloji əsası kimi, hər şeydən öncə fenomenoloji yanaşma ilə vəhdətdə araşdırmanın hərtərəfliliyinin dialektik prinsipi çıxış edir.

Gerçək tarixdə dialektik metoddan bioetika predmetləri ilə siyasi-hüquqi institutların qarşılıqlı əlaqələrinin nəzərdən keçirilməsi üçün istifadə edilmişdir. Bu zaman dialektik metodun başlıca prinsiplərindən biri – tarixiliyin və məntiqiliyin vahidliyi prinsipi tətbiq edilmişdir.

Göstərilən nəzəri-metodoloji yanaşmaların istifadə edilməsi gedişində sistemli analiz və sintez metodları, analogiya, müqayisə, elmi ümumiləşdirmə və digər məşhur klassik metodoloji prosedurlardan istifadə olunmuşdur.

Mövzunun tədqiq edilməsi zamanı bioetika, ümumi hüquq nəzəriyyəsi, beynəlxalq hüquq, Azərbaycan Respublikasının və xarici dövlətlərin konstitusiya hüququ üzrə elmi işlərə müraciət etmək lazım gəlmişdir.

**Tədqiqatın normativ bazasını** müxtəlif bioetik problemləri tənzimləyən Azərbaycan və əcnəbi qanunvericiliyin beynəlxalq, konstitusiya və digər normativ-hüquqi aktları təşkil etmişdir.



Dissertasiya üzərində iş prosesində bioetika, tibbi hüquq, beynəlxalq hüquq, konstitusiya hüququ və cinayət hüququ, cinayət prosesi və kriminologiya sahəsində Azərbaycan və əcnəbi mütəxəssislərin: İ.Ağayev, M.Ələsgərov, E. Əsgərov, Z.Əsgərov, Ə.Əliyev, N.Əliyev, Ş.Əliyev, Avrora Palmer, N.Arsenyev, Alfred P.Rubin, Ander den Ekster, J.Batay, Y.Boroday, Q.N.Borzenkov, S.V.Borodin, M.Veron, K.Buse, Y.Vagin, D.N.Veystub, İ.Vişeb, D.Vukadinoviç, K.Qorov, L.Hüseynov, Y.Davıdov, A.Demiçev, Ç.E.Donald, V.İbayev, A.Karmi, R.Beran, B.Arda, M.İ.Kovalyov, S.Krinski, O.A.Krasovski, N.F.Kuznetsova, A.Kurayev, K.Li, R.Marqaret, V.Məmmədov, R.F.Məmmədov, R.K.Məmmədov, R.Mehdiyev, V.İ.Mixaylov, R.Mustafayev, A.V.Naumov, A.S.Nikiforov, V.S.Ovçinski, T.Y.Oreşkina, O.Pas, J.Pozo, V.D.Popov, J.K.Pradel, M.V.Radçenko, A.İ.Raroqa, Ç.Rəcəbli, V.Rabinoviç, V.Rozin, S.Ryazansev, F.Səməndərov, J.P.Sartr, A.S.Semyonov, O.Suvorov, A.Surojski, N.S.Taqansev, Y.M.Tkaçevski, V.İ.Tkaçenko, İ.M.Tyajkova, B.Tobes, D.S.Tomasma, L.Trequbov, M.Xaydegger, S.Xoruji, Q.Y.Şnayder, M.Eliade P.S.Yani və başqalarının əsərləri öyrənilmişdir. Hüquqşünasların, filosofların, siyasətçilərin və həmçinin digər elm sahələrinin nümayəndələrinin də tədqiqatları araşdırılmışdır.

Dissertasiya işinin normativ bazası bioetika üzrə beynəlxalq konvensiyalar, Azərbaycan və xarici dövlətlərin (Fransa, ABŞ, İspaniya, Almaniya, Avstriya, İsveçrə, Gürcüstan, Estoniya, Danimarka, Bolqarıstan, Polşa, Rusiya Federasiyası və başqaları) konstitusiya və cinayət qanunvericiliyi, adı çəkilən ölkələrin səhiyyə sahəsində qanunvericiliyi olmuşdur. Müəllif zəruri hallarda Azərbaycan Respublikası və digər dövlətlərin konstitusiya, mülki və ailə qanunvericiliyinə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin sahə-normativ aktlarına və digər sənədlərə müraciət etmişdir.

**Dissertasiyanın elmi yeniliyi.** Bu elmi iş mahiyyətcə aktual bioetik problemlərin insan hüquqları kontekstində hüquqi qiymətləndirilməsi üzrə Azərbaycan Respublikasında ilk kompleks monoqrafik tədqiqatdır.

1. İlk dəfə olaraq bioetikanın hüquq elmləri ilə sıx əlaqələndirilməsi əsaslandırılmışdır;
2. Azərbaycan elmində bioetika və insan hüquqlarının vəhdəti ilk dəfə tədqiq olunub əsaslandırılmışdır;
3. Azərbaycan hüquq elmində yaşamaq və sağlamlığın qorunması hüquqlarının tədqiqində müasir bioetik yanaşmaların təhlili aparılmışdır;
4. Aktual bioetik problemlərə aid (genetik modifikasiya olunmuş yeyinti məhsulları, reproduktiv texnologiyalar, orqan və toxumaların

transplantasiyası və s.) beynəlxalq və milli qanunvericiliyin ilk dəfə olaraq müqayisəli təhlili aparılmış və bu sahələr üzrə milli qanunvericiliyin təkmilləşdirilməsinə aid tövsiyələr irəli sürülmüşdür;

5. İnsan hüquqlarının təmin olunmasında bioetika sahəsində maarifləndirmə və tibbi hüququn inkişafı mühüm yer tutur. İlk dəfə olaraq Azərbaycan hüquq elmində tibbi hüququn ayrıca bir hüquq sahəsi kimi formalaşması və zəruriliyi göstərilmişdir;

6. Müəyyən olunmuşdur ki, bioetikanın və tibbi hüququn əsas vəzifəsi - beynəlxalq və milli hüquq mexanizmlərinin köməyi ilə insanın yaşamaq və sağlamlıq hüquqlarının qorunmasıdır.

Dissertasiyada tədqiqatlar nəticəsində əldə edilmiş və **aparılan tədqiqatların yeniliyini** əks etdirən aşağıdakı nəticələr əsaslandırılır və müdafiəyə çıxarılır:

1. Bioetika elmi biotəbabətin, yeni texnologiyaların sürətli inkişafı ilə bağlı olan insan sağlamlığının və həyatının qorunması sahələrində müasir elmlərdən biridir və burada əmələ gələn çoxsaylı etik problem və dilemmaların həllinə yönəlmişdir. Mövcud etik problemlərin ən səmərəli yolla həlli üçün tək etik yanaşmalar yetərli deyil, burada hüquqi yanaşmalar və mexanizmlər təkmilləşdirilməli və demokratik ölkələrin qanunvericiliyində insan hüquqlarının müdafiəsi başda olmaqla implementasiya olunmalıdır.

2. Hüquqi təminat olmadıqda bioetikanın aşkarladığı mürəkkəb etik dilemmaların həllinin tapılması çətinləşir. Demokratik dövlətlərin təcrübəsi və aparılan tədqiqatlar onu göstərir ki, cəmiyyətdə mövcud olan və olacaq bioetik problemlərin həllinə bioetika və hüququn vəhdəti, hüquq elminin yeni sahəsi olan tibbi hüququn inkişafı kömək edir. Azərbaycan Respublikasında hüquq elmləri siyahısında "Bioetika və Tibbi hüquq" yeni elmi ixtisasının yaradılması və AAK tərəfindən "Elmi ixtisaslar" siyahısına daxil olunması təklif edilir.

3. Elm sahəsi olaraq bioetika biotibbi etikanı əhatə edir, biotəbabətdə etik problemlərin həlli zamanı fikir ayrılıqlarının əsas səbəbini müəyyən edir. Tibb tarixində həkim və pasiyent arasında olan münasibətlər ənənəvi olaraq həkimə üstünlük verirdisə, hazırda inkişaf etmiş ölkələrin qanunvericiliyində bu, belə deyil. Bunun əsas səbəbi son illərdə yeni elmi texnologiyaların tibbdə sürətlə tətbiqinin inkişafı ilə bağlıdır. Bioetika bu münasibətlərin dinamikasını üzə çıxarır və klinik təbabətin tədqiqat obyektini – müxtəlif təzahürlərdə pasiyentin – fərdiyyətini aktuallaşdırır, onun hüquqlarının qorunmasını səhiyyə sistemində olan bütün ictimai münasibətlərin başında qoyur.



4. Azərbaycan Respublikasının YUNESKO-nun Bioetika və İnsan Hüquqları Ümumi Bəyannaməsinə qoşulmasına baxmayaraq, bioetikanın əsas on beş prinsipi (insan ləyaqəti və hüquqları; xeyir və zərər; muxtariyyət və fərdi məsuliyyət; razılıq; razılıqvermə qabiliyyəti olmayan şəxs; insanın zəif cəhətlərinin tanınması və şəxsiyyətə hörmət; şəxsi həyatın toxunulmazlığı və gizlilik; bərabərlik, düzgünlük və bərabər hüquqluluq; diskriminasiya və stiqmatizasiyaya yol verməmə; mədəni müxtəlifliyə hörmət və plüralizm; həmrəylik və əməkdaşlıq; sosial məsuliyyət və sağlamlıq; dəyərlərdən birgə istifadə; gələcək nəslin müdafiəsi; ətraf aləmin, biosferin və biomüxtəlifliyin qorunması) Azərbaycan milli qanunvericiliyində tam əksini tapmayıb. Bu prinsiplərin əhalinin sağlamlığının qorunması ilə bağlı olan milli qanunvericilikdə tam şəkildə tətbiq olunması insan hüquq və azadlıqlarının qorunması nöqteyi nəzərindən zəruridir.

5. Bioetikanın əsas prinsiplərindən olan "pasiyentin muxtariyyətinə hörmət" prinsipinin mədəni determinasiyasının bərqərar olması müxtəlif mədəniyyət tiplərində fərdiyyət haqqında təsəvvürlərin formalaşmasının və onların muxtariyyət anlayışına təsirinin müqayisəli təhlili əsasında aparılmışdır. Müəyyən olunmuşdur ki, pasiyentin muxtariyyəti onun fərdiyyətinin reallaşması formasıdır, lakin onunla eyni deyil. Bu, pasiyentin muxtariyyətinə hörmət prinsipinin mütləq məna daşımadığını müəyyənləşdirmək imkanı vermişdir, çünki o, konkret mədəniyyətdə fərdiyyət anlayışından asılıdır. Bununla eyni zamanda sübut edilmişdir ki, pasiyentin muxtariyyəti onun fərdiyyətinin reallaşması forması kimi heç də həmişə onun müdafiəsini təmin etmir. Fərdiyyətin muxtariyyətə qədər sıxılmasına isə yol vermək olmaz, belə ki, bu, doğulmamış uşaqların və yaşına, yaxud vəziyyətinə görə öz muxtariyyətini həyata keçirə bilməyən insanların yaşamaq hüququndan məhrum edilməsinə gətirib çıxarır.

6. Bioetikanın tibbi-hüquqi təcrübələri tibbi hüququn, xüsusən də pasiyentin hüquqlarının xüsusiyyət və funksiyalarını üzə çıxarır. Xüsusiyyət və funksiyaların üzə çıxarılması belə bir nəticəyə gəlməyə əsas verir ki, tibbi hüququn ümumi vəzifəsi eyniliyin hüquqi formalarının formalaşmasına və reallaşmasına kömək etmək, eləcə də həm pasiyentin, həm də həkimin tarixi fərdiyyətinin özünüəsaslandırmasına yardımçı olmaqdır. Həkimin pasiyentlə ünsiyyəti zamanı yaranan problemlərin təhlili nəticəsində müəyyən olunmuşdur ki, bu vəzifə heç də həmişə tibbi praktikada başa düşülmür və həyata keçirilmir.

7. Dissertasiyada ölümlə bağlı bir çox müasir yanaşmalar müzakirə edilir. Onlardan bioetik dilemma kimi evtanaziya probleminin müasir

ictimai diskussiyalarda genişləndiyini göstərmək cəhdi edilir və XXI əsrdə bəşəriyyətin inkişafında bu problemin əhəmiyyəti haqqında nəticə çıxarılır. Bu mövzu Azərbaycanda ilk dəfə M. A. Əliyeva tərəfindən araşdırılıb və biz də bu sahədə etik-hüquqi məsələləri təhlil edərkən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə imtiyazlı ölüm tərkibinin (şəfqət hissinə əsaslanmaqla zərərçəkənin xahişi ilə) salınmasının məqsədəuyğun olmaması fikrinə gəlirik.

Xospis işinin fəlsəfəsi ölməkdə olan insanlara yardım göstərilən zaman mahiyyəti bioetikanın tənzimləyici "ləyaqətli ölüm hüququ" prinsipində cəmləşən yeni etik yanaşmaları təsdiq edir.

Dissertasiyada bioetik dilemma kimi evtanaziya probleminin müasir fəlsəfi diskussiyalarda genişləndiyini göstərmək cəhdi edilir və XXI əsrdə bəşəriyyətin inkişafında bu problemin əhəmiyyəti haqqında nəticə çıxarılır[1].

8. İnsanın reproduktiv sağlamlıq (reproduktiv hüquqlar) ilə bağlı hüquqlarının təbii, anadangəlmə, ayrılmaz hüquqlara aid olduğu, insanın öz təbiətindən, onun fizioloji xüsusiyyətlərindən və təbii tələbatlarından yarandığı barədə nəticə çıxarılır. İnsanın reproduktiv funksiyasının həyata keçirilməsinin əsası konstitusiya üzrə yaşamaq hüququdur. Belə ki, onun həyata keçirilmə formalarından asılı olmayaraq (məsələn, süni reproduksiya metodlarının tətbiqi ilə), son məqsəd yeni insan həyatının yaranmasıdır. Reproduktiv hüquqlar - ər-arvadın və ya ayrı-ayrı şəxslərin hər hansı diskriminasiya, məcburiyyət və zorakılıq olmadan nəsilartırma məsələsində sərbəst və məsul qərar qəbul etməkdən, bunun üçün zəruri məlumata malik olmaqdan, habelə ailə planlaşdırması və sonsuzluğun aradan qaldırılmasının daha səmərəli və təhlükəsiz metodlarının mümkünlüyündən ibarət ən yüksək səviyyəli reproduktiv sağlamlıq hüququdur.

9. Belə bir qənaətə gəlinir ki, reproduktiv hüquqlar insan və vətəndaşın bəzi əsas (şəxsi) və digər konstitusiya hüquqlarının elementləridir. Bunlar insanın yaşamaq hüququ ilə sıx əlaqədədir və onun məzmununu genişləndirir, məsələn:

a) azad reproduktiv seçim və ailə planlaşdırması hüququ şəxsi azadlıq hüququnun elementləridir (Azərbaycan Respublikasının Konstitusiyası, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 1-ci hissəsi,

[1] Алиева М.А. Эвтаназия как морально-правовая проблема // Bakı Universitetinin Xəbərləri: Sosial-siyasi elmlər seriyası. 2005, №1, s.5-14



maddə 9, İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Konvensiyanın 5-ci maddəsi);

b) reproduktiv sağlamlığın qorunması və ailə planlaşdırması ilə bağlı məlumat əldə edilməsi hüququ – hər bir insan və vətəndaşın məlumatı hər hansı qanuni üsulla sərbəst axtarmaq, almaq, ötürmək, hazırlamaq və yaymaq hüququnun elementidir (Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 2-ci hissə, 19-cu maddə);

c) reproduktiv sağlamlığın qorunması məqsədilə ixtisaslaşdırılmış tibbi yardım almaq hüququ - insan və vətəndaşın ən mühüm sosial hüquqlarından birinin - sağlamlığın qorunması tibbi yardım hüququnun elementidir. Beynəlxalq hüququn ümumqəbul olunmuş bu norması həm Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (25-ci maddə), həm də İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda (12-ci maddə) təsbit olunmuşdur;

d) şəxsi həyata müdaxilə etməmək və reproduktiv sağlamlığın qorunması ilə bağlı xidmətlər göstərilərkən məxfiliyin təminatı hüququ şəxsi həyatın toxunulmazlığı, şəxsi və ailə sirrinin qorunması hüququ üzrə konstitusiya hüququnun, şəxsi və ailə həyatına hörmət göstərilməsi hüququnu təsbit edən İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın 8-ci maddəsinin, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 17-ci maddəsinin elementidir, eləcə də şəxsin şəxsi həyatı haqqında məlumatın toplanması, saxlanması, istifadəsi və yayılmasının yolverilməzliyi haqqında konstitusiya müddəasının tərkib hissəsidir;

e) reproduktiv sağlamlığın qorunması və sonsuzluğun müalicəsi məqsədilə elmi tərəqqinin nailiyyətlərindən istifadə hüququ hər bir insanın elmi tərəqqidə iştirak və onun nemətlərindən istifadə etmək hüququnu bəyan edən İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinin, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci hissə, 27-ci maddəsinin elementidir;

f) insanın hüquqi müdafiəsinin səmərəli üsuluna təminat verən İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın 13-cü maddəsinə və "Konstitusiya, yaxud qanunla insana verilən əsas hüquqların pozulduğu hallarda onun hüquqlarının səlahiyyətli milli məhkəmələr tərəfindən səmərəli bərpası" hüququnu təsbit edən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 8-ci maddəsinə müvafiq olaraq, hər bir insanın və vətəndaşın hüquq və azadlıqlarının dövlət və məhkəmə tərəfindən müdafiəsini müəyyənləşdirən Azərbaycan

Respublikası Konstitusiyası ilə insanın öz reproduktiv hüquqlarını müdafiə etmək hüququna təminat verilir.

10. İnsanın sərbəst reproduktiv seçim hüququ onun reproduktiv funksiyasının vacib elementlərindən biridir. Bu, kişi və qadınlara reproduktiv davranışın sərbəst fəaliyyət göstərən subyektləri olmağa təminat verir, uşaqların arzu olunan sayı haqqında məsələni və onların doğulmaları arasındakı vaxtı sərbəst və məsuliyyətlə həll etmək imkanı verir, habelə insanın yaşamaq və azadlıq hüququnun əlavə təminatı hesab edilə bilər.

11. Bioetika problemləri üç aspektdə: təbabət, fəlsəfə və hüquqşünaslıqda müzakirə edilir. Bir çox məsələlərin keçid xarakteri ("artıq əxlaq deyil, lakin hələ hüquq da deyil") bu sahəni hələ də hansısa müəyyən elm qrupuna şamil etməyə imkan verməsə də, aparılmış dissertasiya tədqiqatı "Bioetika və tibbi hüquq" elmi ixtisasının hüquq elmləri sırasında olmasının zərurətini əsaslandırır. Qərbdə yaxşı işlənilmiş bioetika sistemi Azərbaycan Respublikasında hələ indi-indi adaptasiya olmağa başlayır. Lakin beynəlxalq hüququn təsbit etdiyi bioetik norma və prinsiplərin Azərbaycan qanunvericiliyinə müvafiq şəkildə tətbiq edilməsi prinsipial xarakter daşıyır və bu mürəkkəb məsələnin həllini hüquqşünaslar həyata keçirməlidir. Bu məqsədlə "Bioetika və tibbi hüquq" elminin hüquqşünaslıq fakültələrində tədrisi YUNESKO-nun tövsiyələrinə uyğun olaraq inkişaf etdirilməlidir.

12. Bioetikanın və beynəlxalq hüququn müqayisəsi aşağıdakından ibarətdir. Bioetika da hüquq kimi ən müxtəlif sosial normaların: dini, tibbi-etik, iqtisadi və s. təsirini öz üzərində hiss edir. Onun vəzifəsi – biologiya və təbabət sahəsində nailiyyətlərlə əlaqədar olaraq bəşəri dəyərlər əsasında insan hüquqları haqqında bütöv konsepsiya işləyib hazırlamaqdır. Bu baxımdan, bioetika digər sosial normalardan (o cümlədən, hüquqi) davranış qaydalarının həm həcminə, həm də məzmununa görə daim fərqlənəcək.

13. Biologiya və təbabət sahəsində baş verən hüquq pozuntularını tibb işçilərinin öz peşə funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar törətdikləri "ənənəvi" hüquq pozuntularından ayırmaq lazımdır. Artıq cinayət qanunvericiliyinin müdafiəsi altına salınmış məsələlərdən başqa, hazırda cinayət hüququ ilə müdafiə olunmayan rifah və maraqlar da: insan rüşeyminin həyatı və sağlamlığı, insanın genetik bütövlüyü, sözün geniş anlamında insan ləyaqəti, yəni doğulana qədər, yaşadığı dövrdə və ölümdən sonra ləyaqətli münasibət hüququ və s. "bioetik" cinayətlərin obyekti olaraq nəzərdən keçirilməlidir.



Cinayətkar qəsd obyektləri qismində həyat, sağlamlıq, ləyaqət, insanın şəxsi azadlığı və hazırda başa düşülən digər obyektlər çıxış edərlərsə, sırf tibbi və "bioetik" cinayətlər arasında ayırıcı əlamət onların "miqyaslılığı", başqa sözlə, ictimai təhlükəli nəticələrin əhəmiyyətliliyi olacaq. Çünki "bioetik" cinayətlər ayrıca bir insanın deyil, başlıca olaraq əksər insanların həyatını təhlükə ilə üzləşdirir (məsələn, genetik silahın yaradılması, insanın klonlaşdırılması zamanı həm klonlaşdırılmış şəxs üçün, həm də gələcək nəsillər üçün gözlənilməz nəticələr. İnsanın genotipinə müdaxilə zamanı bu şəxsin nəslinin rifahı, həyatı və sağlamlığı təhlükə altına alına bilər və s.). Bundan başqa, baxılan cinayətlər elmi fəaliyyətin müəyyən subyektinin olmasını nəzərdə tutur. O, təkcə müvafiq tibbi və ya bioloji təhsilə malik olmamalı, habelə biologiya və təbabətin müvafiq sahələri üzrə yüksək dərəcəli peşəkar olmalıdır.

14. İnsanın orqan, toxuma və hüceyrələrinin transplantasiyası ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi hüquqi qüvvəsinə görə ən müxtəlif normativ aktları ehtiva edir. Nəzərdən keçirilən sahədə bir sıra mühüm sənədlərin – "İnsanın orqan və toxumalarının transplantasiyası haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında" qanunların qəbul edilməsinə baxmayaraq, göstərilən münasibətlərin hüquqi tənzimlənməsini mükəmməl saymaq olmaz. Rüşeymin toxuma və hüceyrələrinin transplantasiyasında, qan götürülməsində və transplantasiya haqqında qanunda sadalanmayan, lakin faktiki olaraq ölmüş insanlardan götürülən orqanların (göz almacığı, buynuz təbəqə, dəri, bərk beyin örtüyü və s.) çıxarılmasında, heyvan orqanlarının köçürülməsində, eləcə də bir sıra məsələlərdə boşluqlar var. Bütövlükdə, transplantologiya sahəsinin hüquqi tənzimlənməsi inkişaf səviyyəsi baxımından çox geri qalır. Transplantasiya haqqında mövcud Azərbaycan qanunvericiliyi beynəlxalq hüquq və bioetik nəzəriyyələr nəzərə alınmaqla təkmilləşdirilməlidir. Göstərilən boşluqlar transplantologiya sahəsində ictimai təhlükəli davranışa görə cinayət məsuliyyətinin müəyyən olunmasına əngəl törədir.

15. Biz insan rüşeymi (dölün) həyatının konstitusiya-hüquqi və cinayət-hüquqi qorunmasının zəruriliyi qənaətinə gəlmişik. Fikrimizcə, insan rüşeyminin konstitusiya-hüquqi və cinayət-hüquqi qorunması yeni elmi texnologiyaların kəşfi və işlənməsi ilə əlaqədar olaraq, o cümlədən süni mayalandırma və transplantologiya sahəsində xüsusilə zəruridir. Hüceyrə terapiyasının müalicə və cavanlaşdırma metodu kimi etiraf edilməsi rüşeym toxumasına olan tələbatı kəskin artıra bilər. Bu isə ödənişlə, yaxud rüşeym toxumalarının alınmasında maraqlı olan həkimlərin təzyiqi altında abortların sayının artmasına gətirə bilər.

16. Əsaslandırılmış risk kontekstində başa düşülən tibbi risk dissertsiyada tibb işçisinin risksiz mümkün olmayan hərəkətləri (hərəkətsizlik aktları) kimi müəyyən edilir. Bu, əgər risk edən tibb işçisi ziyanın qarşısını almaq üçün yetərincə tədbirlər görmüşsə, terapevtik, yaxud digər ictimai-faydalı məqsədlə törədilir və hüquqla müdafiə olunan maraqlara ziyan vurmaq təhlükəsi ilə müşayiət olunur. Əsaslandırılmış riskin növü olaraq tibbi riskin mütləq hüdudları qismində çox sayda insanın (heç olmasa, üç nəfərin) həyatı üçün təhlükə, ekoloji fəlakət və ya ictimai bədbəxtlik təhdidləri yaradılmasını qəbul etmək lazımdır.

17. Bioetikanın və beynəlxalq hüququn bir sıra ümumi problemləri vardır. Onların işlənilməsi insanın əsas hüquq və azadlıqlarının qorunması, bəşəri dəyərlərin müdafiəsi baxımından çox vacibdir. Bu cür problemlərə aşağıdakılar aiddir: 1) insan həyatının sərhədlərinin müəyyənləşdirilməsi; 2) insanın güclü psixi və fiziki iztirabları zamanı onun xahişi ilə həyatdan məhrum edilməyə yol vermək; 3) tibbi riskə, insan üzərində eksperimentlərə yol verilməsi və bunların əsaslandırılması; 4) insan rüşeymi ilə manipulyasiyalar aparılması; 5) xüsusən də transplantologiya sahəsində müstəsna zəruriliyin hüdudları; 6) insanın şəxsi həyatına müdaxilənin mümkünlüyü və sərhədləri. Azərbaycan Respublikasının milli qanunvericiliyində bioetik məsələlər adekvat şəkildə öz əksini tapmayıb.

18. Müasir Azərbaycan Respublikasında tibbi etikanın əsas norma və prinsiplərinin reallaşması problemi təbabətin dəyər istiqamətlərinin dəyişilməsi, təbabətin şəxsiyyətə istiqamətlənmiş ənənələrinin kifayət qədər formalaşmaması, ictimai təfəkkürdə həkim və pasiyentin qarşılıqlı münasibətlərinin paternalist düzümünün üstünlüyü, milli səhiyyədə yaranmış mürəkkəb şərait, müasir Azərbaycan təbabətinin konsumerizasiyası və s. ilə şərtlənmişdir.

Müasir Azərbaycan gerçəkliyi şəraitində tibbi etikanın əsas norma və prinsiplərinin reallaşmasının sosial cəhətdən şərtlənmiş problemliliyi pasiyentlərin ləyaqət və hüquqlarının müdafiəsinin zəruriliyi ilə bağlı şəraitlərdə, səhiyyədə məlumatlandırılmış razılıq və ədalət prinsiplərinin reallaşmasında özünü daha çox göstərir.

Bioetika bu şəraitlərin təhlili vasitəsilə fəlsəfədə fundamental statusu olan problemlərin tədqiq edilməsində və dərk olunmasında yeni rakurslar açır: şəxsiyyətin ləyaqətinin əsaslandırılması, azadlıq və məsuliyyətin nisbəti, ədalət və şəfqət prinsiplərinin aktuallaşması. Odur ki, həkimlərin və bütün tibb işçilərinin hüquqi və etik biliklərini artırmaq vacibdir, onların diplomaqədər və diplomdansonrakı təhsilində də "Bioetika və tibbi hüquq" fənninin tədrisini müasir standartlara cavab verən səviyyədə təşkil etmək zəruridir.

19. Bioetikanın hüquqi institualizasiya imkanı ona əsaslanır ki, burada hər hansı etik normanın hüquqi normaya çevrilməsi tendensiyası mövcuddur. Digər tərəfdən, biotibbi etika normalarının tətbiq sahəsi öz növbəsində qanunla məhdudlaşdırılan konkret praktiki fəaliyyət sahəsi ilə məhdudlaşdırılır. Ona görə də bioetika normaları konkret hüquqi sahədə reallaşır. Dissertasiyada bioetikanın üçsəviyyəli differensiasiyası əsaslandırılır: nəzəri, praktiki və tətbiqi. Tibbi fəaliyyətin hüquqi rəsmiləşməsi implisit olaraq praktik bioetika ilə bağlıdır. Çünki orada tövsiyələr məcəllə, and, xartiya, bəyannamə və digər buna bənzər sənədlər şəklində təqdim edilir. Bioetikanın əsas funksiyasını aşağıdakı kimi müəyyənləşdirmək olar - əxlaq normalarını hüquqi sahəyə translyasiya etmək, hüquqi potensialı olan etik determinantları seçmək və izah etmək.

Hazırda Azərbaycan Respublikasında bioetikanın hüquqi sahəyə institualizasiya prosesi getməkdədir. İnstitualizasiya altında təbabət sahəsində etik tənzimlənmənin sosial subyektlərinin hüquqi rəsmiləşməsi - əsas bioetik norma və sanksiyaların formallaşması başa düşülür. Öz əksini bu fəaliyyətin xüsusi təşkil olunmuş subyektlərinin – etik komitələrin yaranmasında tapan pasiyentlərin hüquqlarının qorunması üsullarının yüksək formallaşma səviyyəsi Azərbaycan Respublikasında etik komitələr haqqında qanun yaradılması və qəbulu məsələsini aktuallaşdırır. Hazırda onun olmaması sağlamlığın qorunması üzrə milli siyasəti qeyri-təkmil və nizamsız edir.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, araşdırma zamanı əldə edilən nəticələr və onların əsasında formalaşmış təkliflər bioetika sahəsində münasibətləri tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi üçün faydalı ola bilər. Dissertasiyanın materiallarından bioetika üzrə fənlərarası araşdırmalarda və tibbi etikanın ayrı-ayrı problemlərində istifadə oluna, həmçinin bioetik praktikada normativ sənədlərin işlənməsinə kömək edərək, yeni biotexnologiyaların humanitar ekspertizası üçün əsas ola bilər.

Tədqiqatın nəticələri həm yeni ixtisas və dərəcələrin siyahısına, həm də biotəbabət və beynəlxalq hüquq sahəsində təhsilin məzmun və təşkilinə olan müvafiq tələblərin formalaşmasına kömək edə bilər. Dissertasiyanın materialları hüquqşünasların və tibb işçilərinin ixtisasartırma kurslarında və ali tibb məktəbləri və hüquq fakültələri üçün bioetika və tibbi hüquq üzrə kurslarda, habelə fəlsəfə,mədəniyyət, etika, dinşünaslıq, jurnalistika,

psixologiya və digər sosial/humanitar fakültələrdə bu ixtisas üzrə kursların, ayrı-ayrı bölmələrin işlənilməsində istifadə oluna bilər.

Dissertasiyanın nəticələrindən BDU-nun və ATU-nun bütün fakültələrində, digər universitetlərin bir çox fakültələrində bioetika və tibbi hüquq üzrə müəllif mühazirələrində və seminar məşğələlərin aparılmasında istifadə edilə bilər.

Tədqiqatın nəzəri müddəaları əsasında yeni texnologiyalar, süni reproduksiya metodlarının tətbiq olunmasında, transplantasiyada iştirak edən həkimlər, mütəxəssislər üçün metodik tövsiyələr, məsələn, surroqat analıq proqramının tətbiqi zamanı müqavilələr bağlanması qaydaları üzrə tövsiyələr verilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası** müxtəlif istiqamətlər üzrə həyata keçirilmişdir. Dissertasiyanın materialları, əsas nəticələr və tövsiyələrdən Bakı Dövlət Universitetinin hüquq fakültəsində və Moskva Dövlət Universitetinin Bakı filialının psixologiya fakültəsində Bioetika və tibbi hüquq fənninin tədris məşğələlərinin gedişində istifadə olunmuşdur. Belə ki, AMEA-nın İnsan Hüquqları İnstitutu bu fənnin tədrisi məqsədilə hər iki universitetlə bu haqda əməkdaşlıq müqavilələri imzalamış və tədris prosesinin təşkilinə kömək etmişdir. BDU ilə imzalanmış müqavilə üçtərəflidir. Üçüncü tərəf YUNESKO-nun Baş Ofisidir ki, onun da bu prosesə konsultativ-metodik dəstəyi əks olunur. Tədqiqatın nəticələri haqqında bioetika, sağlamlığın qorunması, o cümlədən tibbi hüququn hüquqi problemlərinə həsr olunmuş beynəlxalq və respublika əhəmiyyətli elmi-praktik konfranslarda, həmçinin YUNESKO-nun,Dünya, Amerika və Avropa Tibbi Hüquq Assosiasiyalarının konfranslarında məruzə edilmişdir. “Bioetika və tibbi hüquq” elmi ixtisasının yaradılmasına və AR Prezidenti yanında AAK-ın Elmi ixtisaslar nomenklaturasına salınmasına, bu ixtisas üzrə mütəxəssisin AAK yanında Hüquq elmləri üzrə Ekspert Şurasına daxil olunmasına, bu ixtisas üzrə AMEA İnsan Hüquqları İnstitutunda “Bioetika və tibbi hüquq” şöbəsinin yaradılmasına, onun bazasına YUNESKO-nun Bioetika kafedrasının Azərbaycan bürosunun gətirilməsinə və bu ixtisaslar üzrə doktorantura/dissertanturanın açılmasına nail olunmuşdur.

Öyrənilmiş sahədə beynəlxalq norma yaradıcılığının və Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflər dərc olunaraq elmi məqalələrdə öz əksini tapmışdır. Müəllif tərəfindən dissertasiya mövzusu üzrə 47 məqalə, 18 konfrans materialı, o cümlədən 3 monoqrafiya dərc edilmişdir.



**İşin strukturu.** Dissertasiya işi giriş, üç fəsil (8 paraqraf), nəticə və 643 mənbəni əhatə edən istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın həcmi 400 səhifədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində araşdırılan problemin aktuallığı əsaslandırılmış, mövzunun öyrənilmə dərəcəsi, mənbə bazası, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, müddəaları və əməli əhəmiyyəti təhlil olunmuşdur.

Birinci fəsildə - **“Bioetika ictimai münasibətlərin tənzimetmə vasitəsi kimi və bioetik standartların formalaşmasında beynəlxalq hüququn rolu”** fəslində bioetikanın digər sosial kateqoriyalarla nisbətdə hüquqi təyinatı verilmiş, bioetikanın beynəlxalq-hüquqi və milli-hüquqi prinsipləri və normaları şərh edilmişdir. Müəllif burada səhiyyə və biotəbabət sahəsində beynəlxalq-hüquqi normalar və onların müasir dövlətlərin konstitusiyalarına implementasiyası, habelə Azərbaycan Respublikasında beynəlxalq konvensiya təcrübəsindən istifadə problemlərinə toxunmuşdur.

**1.1.“ Bioetikanın sosial normalar sistemində və ictimai münasibətlərin tənzimlənməsində yeri”** paraqrafında müasir cəmiyyətin bioetikanın ilkin obyektini transformasiya etməsi və dünyanı təkcə “şəxsi mənəvi dəyərlər və prinsiplər işığında” deyil, həmçinin “müxtəlif etik siyasi və hüquqi metodologiyalar cəlb etməklə” nəzərdən keçirdiyi qeyd edilir. Diqqətə çatdıraq ki, bioetika ötən yüzilliyin 60-cı illərinin axırlarında – 70-ci illərinin əvvəllərində ABŞ-da yaranmış çağdaş mədəniyyətin mürəkkəb fenomenidir. D.Kallaxanın göstərdiyi kimi, ”bioetika” terminini 1970-ci ildə Amerika onkoloqu Van Rensseler Potter irəli sürmüşdür[1]. O, insanların həyatına ləyaqətli şərait yaratmaq məqsədilə humanitar elmlərin nümayəndələrinin və təbiətşünasların (hər şeydən öncə, bioloqların və həkimlərin) səylərini birləşdirməyi təklif edirdi. D.Kallaxanın fikrincə, “sağqalma elmi sadəcə elm olmayıb, həm də iki daha vacib və çox zəruri elementi – bioloji bilik və insani dəyərləri birləşdirə bilən yeni hikmət olmalıdır”. Buna görə də alim onun ifadə olunması üçün bioetika terminini təklif etmişdir[2].

[1]Callahan D. Why America accepted Bioethics. N-Y., 2003. p. 34-36
[2]Callahan D. Why America accepted Bioethics. N-Y., 2003.p. 45-46

Bioetika elmi aspektdə aşağıdakı prinsiplərə əsaslanır: 1) "ziyan vurma" prinsipi; 2) "fayda ver" prinsipi; 3) pasiyentin muxtariyyətinə, onun şəxsiyyət kimi hüquqlarına hörmət prinsipi; 4) ədalət prinsipi (təxminən bu mənanı verir: "hər bir kəs mənəvi haqqı çatan şeyləri almalıdır"). Lakin bu prinsiplərin konkret təfsiri və gerçəkləşməsi ciddi mənəvi dilemmalar və praktik problemlər – müstəqil beynəlxalq birlik kimi bioetiklərin fəaliyyəti üçün meydan yaradır.

Bəzən "bioetika" anlayışı, demək olar ki, bütün biosiyasəti əhatə edən dərin məzmun daşıyır. A.Vlavianos-Arvanitis əks tərəfə meyil göstərir və bioetikanı biosiyasətin bölməsi kimi nəzərdən keçirir. O, heç bir tərəfi dəstəkləmir və hesab edir ki, biosiyasətin də, bioetikanın da müstəqil şəkildə mövcud olmaq hüququ var[1].

Qeyd etmək istərdik ki, bioetika və biosiyasət tez-tez kəsişsələr də, onlar müxtəlif konseptual fundamentə malikdir. Yuxarıda göstərildiyi kimi, biosiyasət sosial elmlərlə, xüsusilə də nüvəsində yarandığı politologiya ilə sıx bağlıdır. Tətbiqi etikanın bir hissəsini təmsil edən bioetika fəlsəfənin tərkib hissəsi olaraq, etik təlimlərin güclü laylarına söykənir. A.P.Oqurtsov yazır ki, "bioetika – mənəvi problemləri əhatə edən, insanın yırtıcı heyvanlara və ev heyvanlarına münasibəti kimi qədim tarixi olan, eləcə də biotexnologiyalar və elmi tədqiqatların coşqun inkişafı ilə bağlı yaxın vaxtlarda yaranan problemləri əhatə edən fəlsəfi-tətbiqi bilik sahəsidir"[2].

Bu gün bioetika problemlərinin həllinə bu və ya digər yanaşmanın əsaslandırılması sürətlə dəyişən dünyamızda insanı istiqamətləndirən siyasi, fəlsəfi və hüquqi düşüncə və axtarışların mərkəzindədir.

Qeyd edək ki, beynəlxalq konvensiya təcrübəsinin ətraflı təhlili bioetikanın Azərbaycan Respublikasının milli qanunvericiliyi və bəzi sivil dövlətlərin qanunları ilə təsbit olunmuş bir sıra prinsip və qaydalarının gündəmə gətirilməsinə imkan verir.

**1.2. "Bioetikanın beynəlxalq və millihüquqda prinsipləri və normaları"** paraqrafında bioetikanın Azərbaycan Respublikasının milli qanunvericiliyi və bəzi sivil dövlətlərin qanunları ilə təsbit olunmuş bir sıra prinsip və qaydaları təhlil edilir. Bu prinsip və qaydalarda pasiyentə şəxsiyyət kimi münasibətdə əxlaq minimumu ifadə olunmuşdur. Buraya həkimin özünə verməli olduğu və mənəvi cəhətdən məqbul qərar qəbul

[1] Власов В.В., Гриценко В.Р., Зайцева И.А. и др. Ваши права при получении медицинской помощи. М., Триумф, 1999. с. 48-51
[2]Биоэтика: проблемы и перспективы. Под ред. А.П.Огурцова. М., Медицина, 1992. с.52-53



etmək məqsədilə həmkarları və opponentləri ilə razılığa gəlməklə müzakirə etməli olduğu məsələləri daxil etmək olar[1].

Beləliklə, bioetikanın beynəlxalq-hüquqi sənədlərdə təsbit olunan dörd əsas prinsipini fərqləndirə bilərik: insan ləyaqətinə hörmət prinsipi, "xeyirxahlıq et və ziyan vurma!" prinsipi, şəxsiyyətin muxtariyyətinin tanınması prinsipi və ədalət prinsipi. Yuxarıda göstərdiyimiz bu prinsiplər bir-biri ilə tamamlayıcı prinsip münasibətindədir və öz aralarında iyerarxiya asılılığına malik deyil.

Hər hansı canlı varlığın üzləşdiyi iztirab hər bir normal insanda şəfqət hissi, iztirab çəkənə yardım etmək, onun əzabını yüngülləşdirmək arzusu doğurur. Şəfqət – xüsusi növ vəzifə olaraq yardım çağırışına cavab vermək və ya iki peşənin: baytarlıq və həkimliyin mənəvi əsasıdır[2].

Bu mühüm məqamı unutmamaqla yanaşı, digər bir məsələni də yaddan çıxarmaq olmaz – insanın və heyvanın iztirabı eyni deyil. Ona görə də həkimlərin və baytarların iztirab çəkən varlıqlara münasibəti fərqli olmalıdır. Bu məqam bioetikanın fundamental tələbində - pasiyentə şəxsiyyət kimi yanaşılmasının zəruriliyində təsbit olunur. Qaydaların da sayı dörddür. Bunlar - düzgünlük, məxfilik, şəxsi həyatın toxunulmazlığı və könüllü məlumatlandırılmış razılıq qaydalarıdır.Təsvir edilmiş dörd prinsip pasiyentə şəxsiyyət kimi münasibət göstərilməsinin ən ümumi şərtlərini müəyyən edir.

İ.A.İvannikov və N.A.Rubanovanın göstərdikləri kimi, bu prinsip və qaydalar küll halında pasiyentə şəxsiyyət kimi münasibəti xarakterizə edən etik "koordinatlar"ı təşkil edir[3].

**1.3. "Biotəbabət sahəsində beynəlxalq-hüquqi sənədlər və milliqanunvericiliklərdə bioetik standartların formalaşması"** paraqrafında müəllif tərəfindən müvafiq beynəlxalq sənədlərin ayrı-ayrı maddələri təfsir edilir. Bu və digər beynəlxalq-hüquqi aktların tanınması bir sıra dövlətləri onların reallaşması və müdafiəsi üzrə tədbirlər görməyə, göstərilən hüquqların konstitusiyaya, yaxud digər əsas normativ aktlara

[1]Венгеров А.Б. Право и личность. Теория государства и права. М., ЮНИТИ-ДАНА, Закон и право, 2000. с.20-23
[2]Məmmədov V.Q., Mustafayeva A.İ., Bəndəliyeva A. Pasiyent hüquqlarını əks etdirən beynəlxalq sənədlərin və xarici ölkələrin qanunlarının tədqiqi // "Özümüzü və dünyanı dərketmə yolunda". AMEA İnsan Hüquqları İnstitutunun elmi məqalələr toplusu, Bakı: "Elm və Təhsil" nəşriyyatı. 2011, s. 15-20
[3]Иванников И.А., Рубанова Н.А. Медицинское право: учеб. пособие. М., Медицина, 2008. с.211-213

daxil edilməsi yolu ilə dövlətdaxili qanunvericiliyin beynəlxalq standartların tələblərinə uyğun olaraq dəyişdirilməsinə sövq edir.

Məlum olduğu kimi, 1966-cı ildə BMT Baş Assambleyası yeni mühüm aktlar qəbul etdi: İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt[1] və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt[2] [449, s. 314-319]. Bu sənədlərdə insan və vətəndaş hüquqlarının daha mükəmməl və təfərrüatlı siyahısı verilir. Hər iki pakt insan və vətəndaş hüquqlarının özünəməxsus beynəlxalq məcəlləsini təşkil etmişdir. Bu sənədlərdə hər bir insanın yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, şəxsi və ailə həyatının toxunulmazlığı və s. hüquqları bəyan edilir. İştirakçı dövlətlər isə öz üzərlərinə paktlarda nəzərdə tutulan hüquq və azadlıqların təmin edilməsi üzrə zəruri qanunvericilik tədbirlərinin görülməsi öhdəliyini götürmüşlər. Bu vacib beynəlxalq-hüquqi aktlar sağlamlığın qorunması hüququnun əsasını qoymuşdur.

Sağlamlığın qorunması sahəsində beynəlxalq-hüquqi standartları sağlamlığın qorunması sferasında insan hüquq və azadlıqlarını təsbit edən səlahiyyətli beynəlxalq orqan tərəfindən qəbul edilmiş daha mütərəqqi beynəlxalq-hüquqi normalar kimi, bu hüququn təmin olunmasına qarant kimi, beynəlxalq əməkdaşlıq formaları kimi, həmçinin müxtəlif kateqoriyalı şəxslərə güzəştlər kimi müəyyənləşdirmək olar.

Hazırkı qloballaşma dövründə beynəlxalq təşkilatlar ətraf mühitin mühafizəsi, məişət-istehsalat tullantılarının ləğv edilməsi, məhsulların keyfiyyət standartları, fiziki mədəniyyətin inkişafı və s. üzrə, həmçinin cəmiyyətin sağlamlığının hüquqi təminatına yönələn normalar qəbul edirlər. D.Şeltonun fikrincə, populyarlıq qazanan çoxsaylı beynəlxalq normalar alkoqol və tütünün buraxılışına və yayılmasına nəzarət, eləcə də fiziki mədəniyyətin inkişafı üzrə istiqamətlənib. Bu normalar əhalinin sağlamlığının möhkəmləndirilməsi məqsədi daşıyır [3] . Sağlamlığın qorunmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi fərdi hüquq və azadlıqlarla üzləşir. Beynəlxalq hüquqda onlar həyatın, toxunulmazlığın və azadlığın hökumət tərəfindən görülən məcburi və/ya vacib tədbirlərdən müdafiə edilməsi tədbirləri kimi öz əksini tapır.

---

[1]Права человека.Сборник международных документов. Под общей ред. Г.М.Мелкова. М., Юрид. Лит., 1998. с. 302-313
[2]Права человека.Сборник международных документов. Под общей ред. Г.М.Мелкова. М., Юрид. Лит., 1998. с. 314-319
[3]Shelton D. Remedies in International Human Rights Law. L., Oxford, 1999. p.220-223



Hesab edirik ki, pakt və digər beynəlxalq sazişlərdə təsbit edilən hüquq və azadlıqların siyahısı tam deyil. Hər bir dövlət öz vətəndaşlarına ictimai quruluşun xarakteri, iqtisadi inkişaf səviyyəsi, milli struktur, tarixi ənənələrlə müəyyən olunan xüsusi hüquqlar da verir[1]. Bu paraqrafda bir sıra ölkələrin konstitusiyaları təhlil edilərək belə bir nəticəyə gəlinir ki, sağlamlığın qorunması hüququ dünya birliyi tərəfindən hər bir insana xas olan əsas ayrılmaz hüquq kimi tanınır. Bu hüquq artıq ilk beynəlxalqhü-quqiaktlarda bəyan edilmiş, həmçinin iqtisadi, sosial və mədəni hüquqlar qrupuna aid edilmişdir. Nüfuzlu beynəlxalq təşkilatlarda qanunvericilik təşəbbüsü, sağlamlığın qorunması hüququnun gerçəkləşdirilməsi üzrə beynəlxalq-hüquqi aktların işlənib hazırlanması; dövlətlər tərəfindən təsdiqlənərək, insan hüquq və azadlıqlarını təsbit edən beynəlxalq-hüquqi aktların müddəalarının icrasına nəzarət kimi funksiyaları olan xüsusi bölmələr mövcuddur[2].

Qeyd etmək lazımdır ki, bu gün ictimai həyatın bütün sahələrində, o cümlədən də təbabətdə insan hüquqlarının vacibliyinin etiraf edilmədiyi heç bir demokratik ölkə yoxdur. Bu sahədəki hüquqlar etika məsələləri ilə sıx bağlıdır və hamıya məlum olan prinsiplərə söykənir.Bunlardan pasiyentin sərbəst və şüurlu qərarına hörmət, həkim seçimi hüququ və həkimin səlahiyyətləri hüdudunda ona müalicə üsulunun müəyyənləşdirilməsi sərbəstliyi verilməsinə razılıq (bu da könüllü razılıq anlamına gəlir), eləcə də insanın həyat və ləyaqətinə hörmət, şəxsi həyata və peşə sirrinə müdaxilə etməmək hüququna riayət edilməsini göstərmək olar. Bioetika problem-lərinin ilk geniş müzakirəsi hələ 1946-cı ildə Nürnberq şəhərində keçirilmişdir. Bu, II Dünya müharibəsi illərində nasistlərin insanlar üzərində apardıqları tibbi tədqiqatlarla əlaqədar idi. Tədbirin nəticəsi olaraq insanlar üzərində elmi tədqiqatlar və eksperimentlər aparılmasını tənzimləyən və «Nürnberq Məcəlləsi» adlandırılan ilk beynəlxalq bioetika sənədi yaradıldı[3]. Beləliklə, alimlərin sosial məsuliyyəti problemini sosial əhəmiyyətli ümumsivilizasiya problemi səviyyəsinə qaldıran ilk beynəlxalq

---

[1] Европейская декларация по охране психического здоровья. Проблемы и пути их решения. Европейская конференция ВОЗ на уровне министров по охране психического здоровья. Хельсинки, Финляндия, 12–15 января 2005 г. http://www.npar.ru/rights/psydef-eu.htm
[2]Mammadov V.Q. Patients rights in the health system of Azerbaijan. Program and Book of Abstracts of the 10th Indo-Pacific Congress on Legal Medicine and Forensic Science, Noida, India, 25-30 October 2010, p.149
[3]Савенко Ю.С. Медицинское право, биоэтика и права человека. Медицина и право. Материалы конференции. М., Институт Открытое общество, 1999. с.128-131

sənəd 1947-ci il tarixli Nürnberq Məcəlləsi oldu. Bu sənəd faşist Almaniyasında insanlar üzərində tibbi təcrübələrin aparılması ilə bağlı materiallara və protokollara əsaslanan Nürnberq prosesinin (1946-1947-ci illər) gedişində qəbul edildi. 1975-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) «Biologiya, təbabət və biokimyanın nailiyyətləri nəzərə alınmaqla, insan şəxsiyyətinin və onun fiziki və intellektual bütövlüyünün müdafiəsi» ilə bağlı qərar qəbul etdi[1].

Məlum olduğu kimi, 1976-cı ildə Ümumdünya Tibb Assosiasiyası Helsinki Bəyannaməsini qəbul etdi. Bu sənəd əsasında tibbi tədqiqatların etik təminatı onların gerçəkləşdirilməsində məcburi şərtə çevrildi. Bu gün bioetika üzrə ümumi hüquq vasitəsi – YUNESKO-nun Ümumdünya İnsan genomu və insan hüquqları üzrə Bəyannaməsi (UNESCO Universal Declaration on the Human Genome and Human Rights) vardır[2]. Bu Bəyannamə nə beynəlxalq konvensiyalar kateqoriyasına, nə də YUNESKO konstitusiyasının təklif etdiyi tövsiyələr siyahısına daxildir. Bu, sadəcə beynəlxalq təşkilatın bəyannaməsidir. Bəyannamə hazırda yeni elm sahələri üçün etik əsasları olan yeganə beynəlxalq sənəddir.

Bu sənəd geniş yayılan və tez-tez istinad olunan bioetika üzrə sorğu materialına çevrilib. Belə ki, Bəyannamədə təsbit edilən qaydalar dünyanın əksər ölkələrində tez-tez müvafiq orqanların, yaxud peşə assosiasiyalarının qanunvericilik və ya etik qaydalarına daxil edilir. Adından da göründüyü kimi, həmin Bəyannamə hüquqi və qanunvericilik gücünə görə bu gün bütün dünyada qəbul edilən 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi kimi insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq qanunvericilik alətləri seriyasında öz yerini tutur[3]. YUNESKO Bəyannaməsi insan hüquqlarının müdafiəsi üzrə əsas prinsipləri biologiya elmləri sahəsinə də şamil edir (Avropada pasiyentlərin hüquqlarının təmin olunması sahəsində siyasət haqqında Bəyannamə)[4]. Lakin bildirməliyik ki, Bəyannamənin tətbiq mexanizmi isə ciddi problem olaraq qalmaqdadır.

[1]Савенко Ю.С. Медицинское право, биоэтика и права человека. Медицина и право. Материалы конференции. М., Институт Открытое общество, 1999. с.144
[2]Права человека.Сборник международных документов. Под общей ред. Г.М.Мелкова. М., Юрид. Лит., 1998. с. 12-16
[3]Вялков А.И., Таранов А.М. и др. Система стандартизации в здравоохранении: прошлое, настоящее и будущее. Вестник обязательного медицинского страхования. 2000. N 1. с.7-15
[4] Декларация о политике в области обеспечении прав пациента в Европе.http:// www.medsoc.ru/info/zakon/file/declaraciya.doc



Bioetik məsələləri tənzimləyən vahid hüquqi akt 2005-ci il oktyabrın 21-nə qədər mövcud deyildi. Belə ki, həmin vaxt keçirilən YUNESKO-nun Baş Konfransının 33-cü sessiyasında Ümumdünya Bioetika və İnsan Hüquqları haqqında Bəyannamə qəbul edildi.

Dissertasiyanın**“Yaşamaq və sağlamlıq hüququ bioetikanın və təbii insan hüquqlarının əsası kimi”** adlanan ikinci fəsli 3 paraqrafdan ibarətdir. **2.1.“Bioetika kontekstində insanın və şəxsiyyətin təbii hüquqları”**ndan bəhs edən ilk paraqrafda müasir beynəlxalq hüquqda insanın və şəxsiyyətin hüquqları, həmçinin insan hüquqlarının müdafiəsi kontekstində qəbul edilmiş beynəlxalq bioetika konvensiyalarının xüsusiyyətləri araşdırılmışdır. Bu gün insanın cazibəli siyasi şüarların hipnozu ilə şəxsiyyətin hüquq və azadlıqları uğrunda kompromissiz mübarizəyə can atdığı bir zamanda, fikrimizcə, azadlığın təbiətinin mahiyyətini anlamadan, yüksək mənəvi başlanğıclara doğru istiqamət götürmədən, bərabərliyin zəruriliyini dərk etmədən bu azadlıq ehtirasların coşmasına və özbaşınalığa apara bilər[1]. Şəxsiyyətin bütövlük hüququ insanın biotəbabətin inkişafı ilə əlaqədar olan aşağıdakı risk qruplarından müdafiə olunmasını təmin edir:

1. insan bədəninin, onun hissələrinin və məhsullarının kommersiyalaşdırılması;
2. insanların genetik xüsusiyyətlərindən xəbərdar olmağa əsaslanan diskriminasiyanın yeni formaları;
3. genetik manipulyasiyalar vasitəsilə insanın instrumentallaşması.

İnsan hüquqları üzrə beynəlxalq hüquqda fərdin bütövlüyünə hörmət, habelə onun fiziki və psixi bütövlük hüququ prinsipi təsbit edilir. Bu, gen texnologiyalarının gücünün hazırkı dövrə nisbətən daha yüksək dərəcədə inkişaf edəcəyi gələcək dövrdə insanın təbiətinə elmi müdaxilənin hüquqi nizamlanmasının fundamental əsaslarının bərqərar olunması baxımından əhəmiyyətli tərəqqidir.

Bu paraqraf iki yarımparaqrafdan ibarətdir. 2**.1.1. “Müxtəlif dövrlərdə insanın təbii hüquqları haqqında təsəvvürlər”** yarımparaqrafında göstərilir ki, insan hüquq və azadlıqları bir çox əsrlər boyu və elə bu gün də bəşəriyyətin həyat rəmzi olmuşdur. İctimai təzahür olaraq bu hüquq və azadlıqların forma, norma, institut, prosedur kimi ictimai həyat münasibətlərində başa düşülməsi və ələlxüsus da əməli cəhətdən tətbiq edilməsi yetərincə mürəkkəb problemdir. Müəllif qədim

[1]Тугаринов В.П. Личность и общество. М., Вымпел, 1965. с.66-69

dövrlərdən etibarən insan hüquqları ilə bağlı müxtəlif yanaşmaları təqdim etmiş, bu tədqiqat kontekstində bütövlükdə konstitusiya hüquqlarının və ayrılıqda yaşamaq hüququnun əsas xüsusiyyətlərini üzə çıxarmışdır.

**2.1.2. “İnsanın təbii hüquqlarının müdafiəsi kontekstində qəbul edilmiş beynəlxalq hüquqi sənədlərin xüsusiyyətləri”** yarımparaqrafında müxtəlif beynəlxalq sənədlər barədə məlumat verilmiş və bu sənədlərin biotəbabətlə bağlı əsas xüsusiyyətləri araşdırılmışdır. Bundan başqa, əksər dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında həkim-pasiyent münasibətlərinin xarakterində baş verən dəyişikliklər təhlil olunmuşdur.

Müəllif **2.2. "Müasir beynəlxalq hüquqda yaşamaq və sağlamlıq hüququnun bioetik aspektləri”** paraqrafında yaşamaq hüququnun beynəlxalq-hüquqi təyinatına toxunmuş, ölüm cəzasının və onun ləğvinin beynəlxalq-hüquqi standartlarının xüsusiyyətlərini təhlil etmişdir. Yaşamaq hüququ bu sahədə olan bütün digər hüquq və azadlıqların özülünü təşkil edir. O, dünya sivilizasiyasının mütləq dəyəridir, çünki insan məhv olarkən bütün digər hüquqlar da öz məna və əhəmiyyətini itirir. Bu fundamental hüququ iki aspektdə nəzərdən keçirmək mümkündür:

birincisi, dövlət, onun nümayəndələri və ya ayrı-ayrı şəxslər tərəfindən şəxsiyyətin həyatının hər hansı qanunsuz qəsddən qorunması hüququ kimi;

ikincisi, şəxsiyyətin öz həyatı ilə sərbəst rəftar etmək hüququ kimi.

Mahiyyətcə, qalan bütün digər hüquqlar bu təməl hüququnun ətrafında bu və ya digər şəkildə birləşirlər.

Bu paraqrafda habelə evtanaziya və insan hüquqlarının müdafiəsi, eləcə də doğum sahəsində insanın konstitusiya hüququ olan yaşamaq hüququnun xüsusiyyətləri nəzərdən keçirilmişdir. Bir çox illərdir ki, evtanaziya mövzusu insanlarda birmənalı olmayan reaksiyalara səbəb olur. Hazırkı XXI əsr də istisna deyil. Bu gün evtanaziya problemi daha geniş ictimai əks-səda doğurmaqdadır. Bu, onunla əlaqədardır ki, ağır xəstələrin həyat qabiliyyətini saxlamaq üçün yeni-yeni tibbi texnologiyalar yaranır. Bu problemin aktuallığının iki aspekti var: birincisi, evtanaziya bizim üçün ən dəyərli və vacib olan həyatımızla bağlıdır; ikincisi, bu problem az öyrənilmişdir, o, alimlərin – hüquqşünasların, filosofların, həkimlərin və s. əsərlərində tam işıqlandırılmamışdır. Son onilliklərdə evtanaziyaya artmaqda olan maraq təbabətin tərəqqisi ilə və xüsusən də ölümlə uzun müddətə mübarizə aparmaq imkanı verən reanimatologiyanın inkişafı ilə əlaqədardır. Bu problemlər əhalinin yaşlaşması fonunda getdikcə daha da aktuallaşır. Bu, ahıl yaşlı insanların və ümidsiz xəstələrin saxlanması,



müalicəsi və onlara qulluq göstərilməsi ilə bağlı çoxlu iqtisadi, sosial, mənəvi-etik və hüquqi məsələlər doğurur.

Bu paraqrafın **2.2.1. “Yaşamaq və sağlamlıq hüququ haqqında təsəvvürlər və onların beynəlxalq-hüquqi təyinatı”** yarımparaqrafında yaşamaq və sağlamlıq hüquqlarının oxşar və fərqli cəhətləri barədə məlumat verilmiş, qanunvericilikdə bu hüquqların təsbit edildiyi müddəalar göstərilmişdir. Müəllif sağlamlıq hüququ ilə bağlı problemləri, psixi sağlamlıq, gigiyena, təmiz içməli su hüququ, abort problemi və s. məsələləri ətraflı araşdırmışdır.

**2.2.2. “Doğum sahəsində insanın konstitusiya hüququ olan yaşamaq hüququnun xüsusiyyətləri”** yarımparaqrafında qeyd edilir ki, hazırda demoqrafik böhran və reproduktiv sağlamlıq problemi ictimai diqqət mərkəzindədir. Buna bütövlükdə, dünyada və eləcə də Azərbaycan Respublikasında əhalinin sağlamlığının, xüsusilə də reproduktiv sağlamlığın pisləşməsi istiqamətində yaranmış əlverişsiz meyillər daha çox səbəb olmuşdur. Müəllif tərəfindən insanın reproduktiv funksiyasının məzmunu beynəlxalq və konstitusiya hüququnun reallaşması forması kimi öyrənilmişdir. İnsanın reproduktiv fəaliyyəti sahəsində yaranan ictimai münasibətlərin hüquqi nizamlanmasını yaxşılaşdırmaq məqsədilə vətəndaşların reproduktiv hüquqlarını təsbit edən və onların reallaşması mexanizmlərini müəyyənləşdirən yeni qanunların qəbul edilməsinin və qüvvədə olan hüquqi aktların təkmilləşdirilməsinin zəruriliyi vurğulanır. Hesab edilir ki, vətəndaşların reproduktiv sağlamlıqlarının qorunması hüququnu həyata keçirən zaman yaranan ictimai münasibətləri tənzimləyən xüsusi qanunun qəbul edilməsi lazımdır. Bu qanunun məqsədi həmin sahəni nizamlayan pərakəndə normativ-hüquqi aktların sistemləşdirilməsinin təminatı olardı.

**2.2.3.”Ölüm və insan hüquqlarının müdafiəsi: bioetik və hüquqi yanaşmalar (ölüm cəzası və onun ləğvi, ölüm hüququ, evtanaziya və s.)”** yapımparaqrafı bioetikanın ölüm cəzası və ümumiyyətlə, ölüm hüququ ilə bağlı münasibətlərinə həsr edilmişdir. Müəllif bu sahədə qəbul olunmuş mühüm beynəlxalq sənədlərə toxunmuş, bu sənədlərin müvafiq maddələrini, fərqli cəhətlərini təhlil etmişdir. Burada qeyd olunur ki, Azərbaycan Respublikası Avropa Şurasına daxil olduqdan sonra üzərinə götürdüyü öhdəliklərə əməl etmiş və ölüm hökmünü və cəzasını ləğv etmişdir. Hazırda bütün dünyada geniş yayılan evtanaziya problemi və palliativ xidmətlər də bu yarımparaqrafın tədqiqat obyektidir.

Bu paraqrafın sonuncu – **2.2.4.”Yevgenikanın insan hüquqları konsepsiyalarına və praktikasına uyğunluq problemi”**

yarımparaqrafında insan nəslinin yaxşılaşdırılması haqqında elm olan yevgenikanın xüsusiyyətləri və ortaya çıxan problemlər işıqlandırılmışdır. Əsl elm baxımından, yevgenikanın da mühakimələrində qüsurlar var.

Yevgenikanın (insan nəslinin yaxşılaşdırılması) xüsusiyyətləri və bu sahədə aparılan eksperimentlər barədə məlumat verilir. Hüquq və tibb elmində "yevgenika" və "genetika" sözləri insan nəslinin yaxşılaşdırılması haqqında elm mənasını ifadə edir. Hərçənd, onu faşistlərin qeyri-insani eksperimentləri və bu cür digər təcrübələrlə bağlı sahə kimi də başa düşürlər. N.X.Əmirovun fikrincə, bu zaman məlumatı olmayanların əksəriyyəti əslində yevgenikanın nə olduğunu düzgün təsəvvür etmir[1].

V.S.Baranovun qeyd etdiyi kimi, yevgenika - bəşəriyyət üçün nəsə "ağrılı məsələ" kimi bir şeydir. Ona görə də bu barədə danışmaq təkcə maraqlı deyil, həm də faydalıdır[2].

Hər hansı seleksiyaçı yaxşı bilir ki, yaxşılaşdırılmış xüsusiyyətləri olan yeni cins yaratmaq üçün heyvanların təxminən 95 faizini "zay məhsul" kimi çıxdaş etmək lazımdır. Hər bir seçimin prinsipi belədir: pislər çoxalmada iştirak etməməlidir. Bax, elə buradaca yevgenika insan etikası və əxlaq sahəsində olan həll edilməmiş problemlərlə birbaşa üzləşir.

Müəllif pozitiv və neqativ yevgenika, ortaya çıxan ziddiyyətlər, gələcək perspektivlər istiqamətində aparılan tədqiqatları təhlil edir. Məlum olduğu kimi, müharibədən sonrakı illərdə yevgenikaya olan maraq aşağı endi, lakin XX əsrin sonlarında bu məsələ yenidən dirçəlməyə başladı. Dirçəlişin səbəbi planetimizdə ekoloji vəziyyətin pisləşməsi ilə əlaqədardır. Ozon dəlikləri, radiasiyanın səviyyəsinin yüksəlməsi, ekoloji zəhərlər, ətraf mühitdə mutagenlər və kanserogenlər – bütün bunlar insanların genlərində zərərli və lazımsız dəyişikliklərin toplanmasına – mutasiyaya aparır. Mutasiyaların bu cür toplanması genetik yük adını almışdır. Mutasiyalar sağlamlığın pisləşməsinə, müxtəlif psixi sapmalara, patologiyalara səbəb olur[3].

Əksər alimlər öz narahatlıqlarını bildirirlər: əgər bu problem həddindən artıq genişlənərsə, onda bəşəriyyətə nə ola bilər? Bu proses insan

---

[1]Амиров Н.Х. Медицинская биоэтика как наука и предмет преподавания. Казанский медицинский журнал. 1998. Т.79, № 2.с.81-82

[2] Баранов В.С. Генная терапия - медицина XXI века. Генная терапия – медицине будущего. М., Изд-во Медицина, 2000. с. 22-25

[3]Мустафаева А.И. Правовые апекты биоэтики: международный опыт и Азербайджан. Право и Политология». Периодичекий научный жузнал. Тбилиси. 2009. №3(8). с.6-9



nəslinin kəsilməsinə gətirməzmi? Və yenə də yevgenikanın şirnikləndirici cazibəsi ortaya çıxır – hər halda xəstə və mükəmməl olmayan uşaqların doğuluşundan yaxa qurtarmaq, insan cinsini yaxşılaşdırmaq olmazmı? Yevgenikanın əsas vəzifəsi – ziyanlı və faydalı əlamətlərin nisbətinin yaxşıya tərəf dəyişməsidir. Doğrudan da bir sıra hallarda demək olar ki, genlərin "ziyanlı" və "faydalı" növ müxtəliflikləri var. Lakin genetiklərin ən nikbin hesablamalarına görə, 200-300 il ərzində insan populyasiyasında "faydalı" genlərin sayını cəmi faizin yüzdə biri qədər artırmaq olar. Yəqin ki, bəşəriyyət yevgenikanın cazibəsindən çıxa biləcək. Bunun alternativi irsi xəstəliklər haqqında geniş yayılmış biliklər və tibbi-genetik məsləhətxanalar şəbəkəsinin inkişafı ola bilər. Onların köməyi ilə artıq bir çox hallarda ağır genetik xəstəlikləri olan uşaqların doğulmasından yaxa qurtarmaq mümkündür.

**2.3. "Sağlamlığın qorunması hüququ: beynəlxalq hüquq və Azərbaycan Respublikasının milli qanunvericiliyi"** paraqrafında sağlamlığın qorunması hüququ sahəsində beynəlxalq-hüquqi və milli normaların nisbəti ətraflı araşdırılmış, psixi sağlamlıq hüququ və reproduktiv hüquqlarinsanın təbii hüququ kimi təhlilə çəkilmişdir. Bu paraqraf da 4 yarımparaqrafdan ibarətdir. İlk **2.3.1."Sağlamlığın qorunması hüququ: beynəlxalq-hüquqi və milli normaların nisbəti"** yarımparaqrafında bu sahədə qəbul edilmiş mühüm beynəlxalq sənədlər təhlilə çəkilmişdir. Göstərilir ki, BMT Baş Assambleyası 1966-cı ildə sağlamlığın qorunması hüququnun əsasını qoyan yeni mühüm aktlar qəbul etdi. Bunlar İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt və həmçinin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktdır. Adı çəkilən sənədlər hər bir insanın fiziki və psixi sağlamlığının ən yüksək əldə oluna bilən səviyyəsini tanıyır.

Müasir beynəlxalq münasibətlərin inkişafı açıq-aşkar sübut edir ki, insan hüquqları sahəsində sağlamlığın qorunması üzrə dövlətdaxili münasibətlər beynəlxalq-hüquqi nizamlamanın birbaşa obyektinə çevrilib. İnsan hüquqları üzrə beynəlxalq qanunvericilik sağlamlığın qorunmasının təmin olunmuş hüququnun obyekti kimi "sağlamlıq vəziyyətinin ən yüksək nail olunmuiş səviyyəsi"nə istinad edir[1]. Hazırda beynəlxalq təşkilatlar ətraf mühitin mühafizəsi, istehsalat tullantılarının məhv edilməsi, məhsulların keyfiyyət standartları, fiziki mədəniyyətin inkişafı və s. üzrə, həmçinin cəmiyyətin sağlamlığının hüquqi təminatı məqsədi daşıyan normalar qəbul

---

[1]Бартенев Д.Г.Право на охрану здоровья в международном праве. Дисс. канд. юрид. наук. СПб., 2006. с.22-27

edir. Bu gün alkoqol, tütünün buraxılışına və yayılmasına nəzarət edilməsinə, habelə fiziki mədəniyyətin inkişafına yönəlmiş populyarlıq qazanan çoxsaylı beynəlxalq normalar əhalinin sağlamlığının möhkəmləndirilməsinə xidmət edir. Sağlamlığın qorunmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi fərdi hüquq və azadlıqlarla toqquşur və bu zaman onlar beynəlxalq hüquqda həyatın, toxunulmazlığın və azadlığın hökumət tərəfindən məcburi və/ya mütləq tədbirlərdən müdafiəsinə yönəlmiş tədbirlər kimi təsbit edilir[1].

**2.3.2.”Psixi sağlamlıq hüququ insanın təbii hüququ kimi”** yarımparaqrafında psixi sağlamlıq anlayışı təhlil edilmişdir.Müəllif müvafiq araşdırmalar apararaq Azərbaycanda normativ aktlarda fiziki şəxslərə psixi sağlamlıq hüququnun verilməsi barədə müddəa olmadığını göstərir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının bütün fəaliyyəti Psixi sağlamlığın qorunması üzrə Avropa Fəaliyyət Planının əsas məqsəd və vəzifələrinə uyğun gəlir. Lakin onun fəaliyyət miqyasları cüzi büdcə və təcrid cəhdləri ilə məhdudlaşmışdır. Hətta idarədənkənar dövlət nəzarətinin həyata keçirilmədiyi bir şəraitdə ictimai nəzarətin gerçəkləşməsi uğrunda mübarizə aparmağın nə qədər çətin olduğu başa düşüləndir.

Artıq çoxdan məlumdur ki, dövlət prinsipcə cəmiyyətin səyləri olmadan psixi sağlamlıq problemlərinin öhdəsindən gəlmək iqtidarında deyil. Psixi sağlamlığa gedən yol mütləq hüquqi cəmiyyətdən keçir.

Bizim şəraitimizdə qaçılmaz xərclərin proqnozu və onların qabağının alınması zəruridir. Əks halda bu, piar naminə növbəti görüntü, kağız müəssisəsi olacaq. Bizim keyfiyyətcə başqa bir kontekstimiz hər hansı yaxşı başlanğıcın nəticələrini də tanınmaz dərəcədə dəyişə bilər. Ona görə də qapalı kuluar praktikası əvəzinə, psixiatriya təşkilatlarının nümayəndələri bütün ciddi məsələlərin müzakirəsi, həlli və onların icrasına nəzarət edilməsinə cəlb olunmalıdırlar.

Pasiyentlərin hüquqları anlayışı müasir tibbi hüququn, müasir tibbi etikanın əsasını təşkil edir. Bu anlayışın “insan hüquqları”ndan törəmə olduğu aşkardır. İnsan hüquqları - təkcə insan olaraq doğulması faktına görə hər bir insan fərdinə xas olan onun ayrılmaz, özgəninkiləşdirilməyən hüquqlarıdır[2]. Məlum olduğu kimi, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulundan sonrakı onilliklərdə insan hüquqları İqtisadi,

---

[1]Всемирная организация здравоохранения. Доклад о состоянии здравоохранения в мире. Более безопасное будущее. Глобальная безопасность в области общественного здравоохранения. М., Медицина, 2007. с.161-164

[2] Человек и здравоохранение: правила игры. Пособие для пациентов и их родственников. СПб. 2001. с.124-126



sosial və mədəni hüquqlar haqqında, həmçinin Mülki və siyasi hüquqlar haqqında müvafiq aktlarda (bu iki sənəd birlikdə “İnsan hüquqları haqqında Xartiya” adlanır) konkretləşdirilmiş və ona əlavələr edilmişdir[1]. Hüquq-müdafiə ideologiyasının inkişafında beynəlxalq birliyin, xüsusilə həssas qrupların – etnik azlıqların, mühacirlərin, əlillərin, qadınların, uşaqların və s. hüquqlarının təmin olunması istəyi tam qanunauyğun olmuşdur.

**2.3.3.”Reproduktiv hüquqlar insanın təbii hüququ kimi”** yarımparaqrafında süni mayalandırmanın müxtəlif üsulları, bu cür doğulan uşaqların hüquqi statusu, hüquqi ədəbiyyatda təklif olunan və bu problemlə bağlı meydana çıxa biləcək variantlar nəzərdən keçirilmişdir. Müəllif “Reproduktiv sağlamlıq haqqında” qanun layihəsi ilə bağlı konkret təkliflərini irəli sürmüş, reproduktiv hüquqların qorunması istiqamətində həyata keçirilməli olan məsələləri şərh etmişdir.

Bu paraqrafda yerləşdirilən **2.3.4.”Uşaqların təbii hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi və bioetika problemləri”** yarımparaqrafında həssaslıq prinsipi ayrılıqda hər bir fərdin və bütövlükdə, bütün insanların həyatının reallığını təmsil edir. Bioetika insanların zəif təbəqəsinin: uşaqların, qocaların, məhdud imkanlı insanların, yoxsulların, hamilə qadınların, əlillərin həssaslığını nəzərə alır. Bu, insan hüquqları üzrə beynəlxalq sənədlərin müddəaları ilə birbaşa əlaqəlidir[2].

Beynəlxalq təcrübə göstərir ki, uşaq ombudsmanlarının fəaliyyəti ciddi ziddiyyətlərlə üzləşir. Uşağın hüquqlarına riayət edilməsi hətta faktik olaraq həmin uşağın maraqlarına uyğun gəlməyən hallarda belə, konkret işin araşdırılmasında iştirak edən ombudsman bu hüquqların qorunmasına təkid etməlidirmi; dəyişikliklər edilməsi haqqında təkliflər həmişə uşaqların düşdükləri həyat şəraitlərinə uyğun gəlməlidirmi, yoxsa ombudsman beynəlxalq hüquq prinsip və normalarına əsaslanmaqla dəyişikliklər edilməsində haqlıdır və s.

Bioetikaya aid elmi ədəbiyyatda onun prinsipləri müəyyənləşdirilir və şərh edilir. Dar mənada bioetikanın əsasında (tibbi etika kimi) tibbi müayinə və müalicə çərçivəsində etik normalara əsaslanan 4 prinsip var: muxtariyyət, ziyansızlıq, faydalılıq və insaf (ədalət)[3].

---

[1]Карташкин В.А. Права человека и развитие международного права. Права человека. М., НОРМА-ИНФРА-М, 1999. с.469-472

[2]Hanfried Helmchen and Norman Sartorius. Ethics in Psychiatry: European Contributions. International Library of Ethics, Law, and the New Medicine.Vol.76, 2010. p.77-80

[3]Самович Ю.В. О соотношении российского законодательства в области защиты прав человека с основными международными стандартами. Московский журнал международного права. 2000. №3. с.34-36

Hesab edirik ki, bioetika sahəsində vərdişlər uşaqların sağlam və keyfiyyətli həyata olan yollarını asanlaşdıracaq, onların ömürlərinin uzunluğunu artıracaq. Bioetika insanları özlərini bütöv ekosistemin tərkib hissəsi kimi dərk etməyə vadar edərək, insanlar arasında, insan və təbiət arasında əlaqə və ünsiyyət modeli formalaşdırır[1].

Tədqiqatın 3-cü fəsli **"Aktual bioetika problemlərinin tənzimlənməsində hüquq normalarınınəhəmiyyəti"** adlanır. Bu fəslin **3.1. "Bioetika və biotəhlükəsizliyin qarşılıqlı təsirinin beynəlxalq hüquqi məsələləri"** paraqrafında göstərilir ki, bu və ya digər təhdidin təsirindən qorunmanı tələb edən maraqların xarakterindən asılı olaraq, beynəlxalq təhlükəsizliyin müxtəlif tərəflərini ayırd edirlər. Təhlükəsizliyə olan təhdidlər yaranma səbəbindən asılı olaraq fərqləndirilir. Bu, siyasi, iqtisadi, sosial dəyişikliklər, beynəlxalq aləmdə qüvvələr nisbəti, təbii fəlakətlər və s.lə bağlı ola bilər. Təhdidlərin artma səbəbləri dəyişir. Bu, bir sıra hallarda təhlükəsizliyin təmin olunması üzrə beynəlxalq-hüquqi rejimin effektivliyinin kifayət qədər olmaması göstəricisi kimi çıxış edə bilər. V.A.Engelhardt biotəhlükəsizliyi beynəlxalq birliyin hər şeydən öncə biotexnologiyaların inkişafı ilə əlaqədar bioloji təhdidlərdən müdafiə olunma vəziyyəti kimi müəyyən edir. Bu, əlverişsiz nəticələrin yaranması imkanını aradan qaldıra bilən və onlar yarandıqları təqdirdə səmərəli şəkildə dəf edən müxtəlif vasitə və mexanizmlərdən ibarətdir[2].

Biotexnologiyanın inkişafı – nəticələrindən ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması üçün, yaxud onun durumunun pisləşməsi sürətinin aşağı salınması naminə, həmçinin neqativ nəticələrin aradan qaldırılması məqsədilə istifadə edilə bilən bir elmin inkişafıdır. Alınmış elmi göstəricilər onlardan istifadə edilməsi və yayılması baxımından beynəlxalq və milli səviyyələrdə müxtəlif subyektlərin sosial əhəmiyyətli davranış sərhədlərinin göstərilməsinə ehtiyac duyur. Beynəlxalq müqavilə məcburi normalar sislemi olaraq, elmi tədqiqatların nəticələrinə təsir göstərə bilməz. Lakin beynəlxalq-hüquqi normalar biotexnologiyanın inkişafı üzrə dövlətlərin hüquq və öhdəliklərinin müəyyənləşdirilməsi vasitəsilə bu nəticələrin praktik tətbiqini nizamlamağa qadirdir.

[1] Мамедов В.К., Мустафаева А.И.Права человека в медицине: право на информированное согласие пациента // "Dirçəliş – XXI əsr" (Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri), №166-167/mart-aprel 2012.- Bakı, s.226-234

[2] Энгельгардт В.А. Две стороны молекулярной инженерии. Зарубежом. 1994, № 36, с.11-12



**3.1.1."Yeyinti məhsullarının təhlükəsizliyi sahəsində beynəlxalqhüquqi və milli-hüquqi normalar"** yarımparaqrafında ərzaq təhlükəsizliyi sahəsində qəbul olunmuş beynəlxalq sənədlər səciyyələnir. Məlum olduğu kimi, 2001-ci ildə Ərzaq istehsalını və kənd təsərrüfatını idarə etmək üçün bitki genetik ehtiyatları haqqında Beynəlxalq müqavilə imzalandı. Sənəddə tərəflər mədəni bitkilərin irsiyyətini müasir biotexnologiya üsulları ilə yaxşılaşdırmaq üçün bitki genetik ehtiyatlarının zəruri xammal olması, habelə gözlənilməz iqlim dəyişikliklərinə və gələcəkdə insanların tələbatlarına uyğunlaşmaq üçün onların əhəmiyyətliliyi barədə razılığa gəlmişlər[1].

Qeyd etmək lazımdır ki, genetik dəyişilmiş orqanizmlərin bilərəkdən ətraf mühitə buraxılması ilə bağlı ictimaiyyətin narahatlığı, bu sahədə qərar qəbul edilməsi prosesində aşkarlığın yüksəldilməsi və ictimaiyyətin geniş iştirakının vacibliyi 1998-ci ildə Məlumat əldə etmək, qərar qəbul edilməsi prosesində ictimaiyyətin iştirakı və ətraf mühitlə bağlı məsələlərdə ədalət mühakiməsinin əlçatarlığı haqqında Konvensiyanın qəbul edilməsinin əsas səbəblərindən olmuşdur[2].

**3.1.2. "Bioterrorizmlə mübarizə, ekologiya və biomüxtəlifliyin qorunması"** yarımparaqrafında qeyd edilir ki, dövlətlərin son təşəbbüsləri kütləvi qırğın silahı ilə bağlı yeni təhlükələrin dərk edilməsini təsdiqləyir. 2009-cu ildə Böyük Səkkizlər qrupunun dövlət başçılarının Görüşündə[3] qəbul edilmiş silahların yayılmaması üzrə Fəaliyyət Planına xüsusi fəsil daxildir. Burada deyilir ki, "Bioterrorçuluq bütün ölkələrin təhlükəsizliyi üçün çox ciddi təhdid mənbəyidir və insanların sağlamlığına məhvedici təsir göstərə və iqtisadiyyatın fəaliyyətini dayandıra bilər". Buna görə də dövlətlər aşağıdakı tədbirləri həyata keçirmək üçün tədbirlər görürlər:

1) insanlara, heyvanlara və kənd təsərrüfatı bitkilərinə qarşı bioterrorçuluq hücumlarının aşkarlanması məqsədilə biomonitorinq üzrə yeni imkanları genişləndirmək və zəruri hallarda yaratmaq;

[1] Hanfried Helmchen and Norman Sartorius. Ethics in Psychiatry: European Contributions. International Library of Ethics, Law, and the New Medicine.Vol.76, 2010. p.55-63

[2] Конвенции о доступе к информации, участии общественности в процессе принятия решений и доступе к правосудию по вопросам, касающимся окружающей среды. М., Власть, 1997. с. 13-14

[3] Vukadinovich D. and Krinsky S. Ethics and Law in Modern Medicine: Hypothetical Case Studies. International Library of Ethics, Law, and the New Medicine.Vol.78, 2010. p.33-72

2) qarşısını almaq və münasibət bildirmək üzrə imkanları təkmilləşdirmək, ərzaq təminatı üzrə qlobal sistemin müdafiəsini gücləndirmək;

3) bioloji silahın ehtimal olunan tətbiqi və ya şübhəli xəstəlik yayılmalarında nəticələri təhqiq etmək və aradan qaldırmaq.

Növbəti – **3.1.3."Gen mühəndisliyinin beynəlxalq-hüquqi və bioetik problemləri"** yarımparaqrafı insanın gen mühəndisliyini inkişafı nəticəsində yaranan problemlərinin təhlilinə həsr olunmuşdur. Keçmiş zamanlardan fərqli olaraq, həm bu gün, həm də sabah elmi birlik insan genomunun müvafiq imicinin yaradılmasına və saxlanmasına xeyli səy göstərməlidir. Bu bilik sahəsində tərəqqinin doğurduğu sosial problemlərin geniş ictimai müzakirəsinin həvəsləndirilməsi beynəlxalq sənədlərdə də (məsələn, İnsan hüquqları və biotəbabət haqqında Avropa Şurasının Konvensiyası, YUNESKO-nun İnsan genomu üzrə Bəyannaməsi və s.) onun humanist yolla inkişafının lazımi şərti kimi nəzərdən keçirilir.

Nəzərə almaq lazımdır ki, gen texnologiyası – universal vasitə deyildir. O, biotexnologiyada, hüceyrə biologiyasında, insanın genetikasında tətbiq edilə bilən və bəşəriyyətin təbiətin sirrlərini öyrənməkdə daha irəli getməsinə kömək edə biləcək maraqlı bir metoddur. Molekulyar səviyyədə həyat proseslərinin anlaşılması gələcəkdə insan irsiyyətinin əsaslarını yaxşılaşdırmağa, əksər xəstəliklər üzərində qələbə çalmağa imkan verəcək.

Yeni texnologiyanın səmərəliliyi yeni biliklərin yaranma sürətindən asılıdır. Lakin onun tətbiqinin növləri və həcmi elmi və ictimai diskussiyaların gedişində müəyyən olunmalıdır. Bu müzakirələr artıq iki əsas mövqeni üzə çıxarmışdır: birincisi, daha zəif mövqedir – gen mühəndisliyinin skeptik qiymətləndirilməsi, digəri isə daha güclü – optimist mövqedir.

Bioetik qarşılıqlı əlaqələr haqqında biliklərin artması və həyat proseslərinin idarə edilməsi imkanlarının çoxalması sui-istifadələrə gətirib çıxarmamalıdır. Söhbət ondan gedir ki, yeni həyatın qurulması bəla gətirə bilər, çünki bu həyat təkcə instrument deyil, həm də artıq özbaşına mövcud olmağa və öz-özünü təzələməyə başlayır.

Yeni bioloji bilik fərd üzərində genetik nəzarətin bir çox imkanlarını açır. Hər bir insanda çoxlu sayda "qüsurlu" genlər vardır. Bu ballastın növü və ölçüsü haqqında bilgilər sosial və peşə diskriminasiyasına, həmçinin ağır psixi sarsıntılara gətirə bilər. Ona görə də yəqin ki, gen texnologiyasının insana tətbiqində bu qaydanın - ən yaxşısı heç nə bilməmək, yaxud az



bilmək qaydasının tətbiq edilməli olduğunu hesab edən skeptiklər haqlıdırlar.

Hazırda elmi birliklə cəmiyyət arasında daimi və məqsədyönlü dialoq bir çox ölkələrdə bütövlükdə adi praktikaya çevrilmişdir. İnsan genomu sahəsində elmi birlik nəinki etik problemlərin müzakirəsindən boyun qaçırır, əksinə, bu məsələyə birbaşa maraqlı olmasını da fəal nümayiş etdirir. Əlbəttə, pasiyent və sınaqdan keçirilənlərin məlumatlandırılması, onların sənədləşdirilmiş razılıqlarının alınması kimi etik normalara ciddi əməl edilməsi, "İnsan genomu" layihəsinin reallaşması gedişində yaranan mənəvi-hüquqi problemlərin müzakirəsində iştirak edilməsi, insan üzərində eksperimentlər aparan tədqiqat müəssisələrində etik komitələrin yaradılması və onların səmərəli fəaliyyətinin qaydaya salınması – bütün bunlar xeyli səy, vaxt və zəhmət tələb edir. Lakin nə etməli, bu, insan mövcudluğunun ən intim mexanizmlərinə çox güclü təsir vasitələrinə sahib olmaq, elmi tədqiqatların inkişafı üçün əlverişli mənəvi ab-havanı təmin etmək naminə ödəniləcək bir qiymətdir.

**3.2. "Səhiyyədə bəzi hüquq pozuntularınınqiymətləndirilməsi və onların məsuliyyətinin müəyyənləşdirilməsi"** paraqrafında insanın orqan və toxumalarının transplantasiyası sahəsində cinayətlər, həmçinin insan rüşeyminin cinayət-hüquqi müdafiəsi istiqamətində atılan addımlar təhlil edilmişdir. **3.2.1."İnsan orqan və toxumalarının transplantasiyası sahəsində hüquq pozuntuları"** adlı yarımparaqrafda göstərilir ki, həyatın xilası və insan sağlamlığının yaxşılaşdırılmasında ən səmərəli vasitələrdən biri kimi insan orqan və toxumalarının transplantasiyasının inkişafı etik, dini, mənəvi problemlərlə yanaşı, yetərincə kəskin hüquqi, o cümlədən cinayət-hüquqi xarakterli problemlər də doğurmuşdur. Müəllif transplantasiyaya aid Azərbaycan qanunvericiliyinin müvafiq maddələrinə istinadən bu sahədə baş verən pozuntulara toxunmuş, eyni zamanda təkliflərini vermişdir.

**3.2.2."İnsan rüşeyminin hüquqi müdafiəsi məsələləri"** yarımparaqrafında göstərilir ki, tibb elminin inkişafı çoxlu problemlər doğurmuş və bəzi hallarda bizi bu və ya digər hüquqi institutlara başqa cür nəzər yetirməyə məcbur etmişdir. Bu cür problemlərə transplantasiya məqsədilə və həmçinin, farmakologiya sahəsində insan rüşeymindən istifadə edilməsi aiddir. Ona görə də tədqiqatda insan rüşeyminin cinayət-hüquqi müdafiəsinə yetərli diqqət verilmişdir. Lakin təbabətin, tibbi texnologiyaların və gen mühəndisliyinin inkişafı ilə əlaqədar olaraq, rüşeymin müdafiəsi məsələləri yeni yanaşma baxımından da xüsusilə kəskinləşmişdir. Son illər rüşeym toxumaları həm transplantologiyada, həm də farmakologiyada uğurla tətbiq edilməkdədir. Bununla belə, bu cür tibbi

tədbirlər cəmiyyətdə mənfi əks-sədaya səbəb olmuşdur. ÜST-nin qətnamələrində qeyd edilir ki, xüsusi olaraq hamilə qalacaq və tibbi eksperimentlər, transplantasiya, yaxud farmakoloji məqsədlərlə dölü tibb müəssisələrinə satmaq üçün abort etdirəcək qadınlar vardır. C.Henri Merruman və K.Stefenin fikrincə, ABŞ-ın milli səhiyyə institutları bütün mənəvi-etik problemlər tam şəkildə həll olunmayınca, abort edilmiş dölün hüceyrələrindən istifadəyə qadağa qoymuş və onların maliyyələşdirilməsini dayandırmışlar[1].

**3.2.3.”Klinik eksperimentlərin beynəlxalq və milli hüquqi qaydaları”** yarımparaqrafında müəllif tərəfindən reproduktiv fəaliyyət problemləri və onların hüquqi tənzimlənməsi, insanlar üzərində aparılan klinik eksperimentlərin cinayət-hüquqi aspektləri də ətraflı araşdırılmışdır. Elmi eksperiment həkim-eksperimentator tərəfindən sağalmaz xəstənin və ya canvermə vəziyyətində olan xəstənin əsas, yaxud əlavə xəstəlikləri ilə bağlı diaqnostik və ya müalicə üsul və vasitələrinin tətbiqini nəzərdə tuta bilər. Bu cür hallarda həkim riskli hərəkətlər etməkdə haqlıdır. Həkim sınaqdan keçməmiş vasitələrlə müalicə zamanı ölüm halı ehtimalını, ölüm ehtimalı ilə xəstəliyin bu və ya digər ağırlaşmaları ehtimalını ölçüb-biçməli və onun qarşısının alınması üzrə tədbirlər görməlidir. Xəstəliyin yüngül müşahidə olunduğu hallarda da xəstənin vəziyyətini ağırlaşdırmayan yeni vasitələrin təsirini yoxlamaq üçün xəstələr üzərində eksperimentlər mümkündür. Müstəsna hallarda insanın sağlamlığına cüzi ziyan vurulmasına yol verilir. Bu, onun klinik eksperimentlərdə könüllü iştirak etdiyi hallara aiddir. Əgər eksperimentlər nəticəsində sınaqdan keçirilənin ölümü və ya əlilliyin baş verə biləcəyini güman etməyə apriori əsas vardırsa, onda eksperimentin keçirilməsi yolverilməz sayılır. Yalnız bir haldan başqa: əgər həkim eksperimenti öz üzərində aparırsa.

Bu paraqrafınsonuncu – **3.2.4. “Yoluxucu xəstəliklərlə mübarizə sahəsində hüquq pozuntuları”** yarımparaqrafındaisəXX əsrin son onilliklərində bütün qitələrə yayılaraq, 20 milyondan yuxarı adamı xəstələndirən QİÇS xəstəliyinin bioetik problem kimi səciyyəsi verilir. İnsanın immun çatışmazlığı virusunun (İÇV) səbəb olduğu infeksiya ilə yoluxma məhz qazanılmış immun çatışmazlığı sindromunun (QİÇS) inkişafına gətirir. Artıq 1994-cü illərdə məlum olmuşdur ki, Yer kürəsi

[1]John Henry Merryman and Stephen K. Urice Law, Ethics, And the Visual Arts. W., 2007. p. 211-215



əhalisinin 2 milyon nəfəri QİÇS-dən ölmüşdür[1]. Təkcə ABŞ-da 1996-cı ilin ilk 6 həftəsi ərzində QİÇS nəticəsində 4357 nəfər ölmüşdür.Bir çoxları QİÇS-i bəşəriyyətin mövcudluğu üçün ən mühüm təhdidlərdən biri kimi qiymətləndirmişdir. Lakin epidemiologiya və infeksiya patologiyası baxımından İÇV infeksiyası qeyri-adi xəstəlik deyildir. İÇV cinsi yolla və sifilis törədiciləri, yaxud B və C virus hepatitləri kimi, yoluxmuş qanın parenteral daxil olması zamanı ötürülür. İÇV-yə yoluxmuş xəstələrdə vərəmdə olduğu kimi, möhkəm əmək qabiliyyətinin klinik pozulması əlamətləri müşahidə olunmur. Quduzluq və ya taunda olduğu kimi, QİÇS əksər hallarda ölümlə nəticələnir. QİÇS də əksər şiş növləri kimi az müalicə olunur. Eyni zamanda, İÇV əlamətləri bütövlükdə kifayət qədər unikaldır, ona görə də onun qəfil yayılması çoxlu etik və sosial problemlər doğurmuşdur. Əhalidə, eləcə də tibb işçilərində yuxarıda adları çəkilən bir çox xəstəliklərə qarşı müəyyən yanaşma stereotipi yaranmışdır, QİÇS-in yaranması mənəvi problemlərin bütöv kompleksinə yenidən baxmağa məcbir etmişdir.

Əslində, psixoterapevtik korreksiya İÇV-yə yoluxdurucu pasiyentlərin müalicəsində daha erkən və zəruri aspektlərdən biridir. Tibb işçilərinin savadsız hərəkətləri çox vaxt pasiyentlərin kəskin psixi reaksiyalarına səbəb olur. Bu isə aqressiv davranışa və intihara gətirir. Faktik olaraq QİÇS-in etik problemləri təbabətin bütün etik problemlərini elə bil ki, özündə cəmləşdirir.

İÇV infeksiyanın ayrı-ayrı aspektləri təbabət sahəsində ən müxtəlif mütəxəssislər qarşısında da problemlər yaratmışdır. QİÇS xəstələrinə tibbi yardım göstərilməsinin, məsələn, canvermə vəziyyətində olan QİÇS xəstəsinə reanimasiya yardımı göstərilməsinin məqsədəuyğunluğu kimi problemlər tez-tez yaranır. Çünki bu halda tam aydındır ki, həmin yardım qaçılmaz ölümü yalnız cüzi uzaqlaşdırır. QİÇS-lə əlaqədar evtanaziya problemi də xüsusilə aktuallaşmışdır. D.Vukadinoviç və S.Krinskinin qeyd etdiklərinə görə, hazırda Skandinaviya ölkələrinin birində QİÇS xəstələrinin 50 %-i evtanaziyaya rəsmi icazə verilməsə də, iztirablarının bu cür yüngülləşməsi vasitəsinə əl atır. Rəsmi instansiyalar bu tədbirlərdə iştirak edən tibb işçilərinə qarşı heç bir ölçü götürməyərək, gözləmə taktikasına üstünlük verirlər[2].

[1]Гуревич К.Г., Фабрикант Е.Г., Якиревич И.А.Этические и правовые проблемы оказания медицинской помощи в чрезвычайных ситуациях. Медицинскоеправо, 2008, № 4 (24). с.18-24

[2]Vukadinovich D. and Krinsky S. Ethics and Law in Modern Medicine: Hypothetical Case Studies. International Library of Ethics, Law, and the New Medicine.Vol.78, 2010. p.33-42

İÇV infeksiyanın əks-təsir perspektivləri yeni etik problemlərin yaranmasını nəzərdə tutur. Belə ki, İÇV-yə yoluxmanın qabağını alan vaksinlərin yaradılması halında, şübhəsiz, bu preparatla kimi və nə vaxt immunlaşdırmaq sualı yaranacaq. Buradan müxtəlif rasionalist və etik nəzəriyyələr ortaya çıxacaq: "bütün əhalini vaksinləşdirmək məqsədəuyğun deyil, çünki çoxları heç bir yoluxma riskinə məruz qalmır"; "yalnız homoseksualları və narkomanları vaksinləşdirmək" – bu, onlara "öz fəaliyyətlərini" cəzasız şəkildə davam etdirmək imkanı verməkdir və s. Faktik olaraq QİÇS-in "qaldırdığı" heç bir etik problemi həll etmək, hələ ki, mümkün olmayıb[1].

Beləliklə, İÇV infeksiya pandemiyası hələ uzun müddət gələcək tibb işçiləri qarşısında təkcə sırf tibbi deyil, eləcə də sosial-etik problemlər qaldıracaq. Onları həkimlərin bir çox nəsilləri həll etməli olacaqdır.

Dissertasiya işinin **Nəticə** hissəsində müəllif tərəfindən bütün təkliflər ümumiləşdirilmiş, tədqiqata yekun vurulmuş, habelə görülmüş iş əsasında nəzəri və praktik tövsiyələr irəli sürülmüşdür.

[1]Mann J.M. Human Rights and AIDS: The Future of the Pandemic. Health and Human Rights: A Reader. Jonathan M. Mann et al. eds. N-Y., 1999. p.51-54



## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU MÜƏLLİFIN ÇAP OLUNMUŞ AŞAĞIDAKI MONOQRAFİYA VƏ MƏQALƏLƏRİNDƏ ÖZ ƏKSİNİ TAPMIŞDIR:

**Monoqrafiyalar:**

1. İnsan hüquqlarının müdafiəsi bioetikanın tərkib hissəsi kimi. Bakı: Apostrof Çap Evi, 2012, 131 s.
2. Beynəlxalq hüquqda və milli qanunvericilikdə bioetik normalar və prinsiplər. Bakı: Apostrof Çap Evi, 2013, 159 s.
3. Bioetika, hüquq və insan hüquqları. Bakı: Adventa Qroup MMC, 2013, 338 s.
4. Genetik modifikasiya olunmuş qida məhsulları / A.Mustafayeva, V.Məmmədv, İ.Əhmədov, R.Xəlilov. Dərslik. Bakı: Elm və Təhsil, 2013, 157 s.

**Məqalələr:**

5. "Bioetika və cəmiyyət" // AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu. Məqalələr toplusu. Bakı: Elm və Təhsil 2006, 58 s.
6. Морально-правовые принципы и правила биоэтики // журнал «Современные гуманитарные исследования», № 1, 2010, s. 39-43.
7. Bioetika, insan hüquqları və milli maraqlar // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı, № 4(20). Bakı, 2009, s. 13-15.
8. Bioetika və müasir cəmiyyət // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı, № 3(19). Bakı, 2009, s. 26-30.
9. Elmi tədqiqatlarda etik meyarlar // "Dirçəliş XXI əsr" jurnalı, 139-140. Bakı, 2009, s. 367-373.
10. Elmi tədqiqatlarda etik meyarlar // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" jurnalı, № 2(22). Bakı, 2010, s. 24-29.
11. Право на охрану здоровья: соотношение международно-правовых и национальных норм // «Азербайджан и Азербайджанцы» № 1-2. Баку, 2010, s. 64-73.
12. Bioetik normaların hüquqi aspektləri // "Nəqliyyat Hüququ" jurnalı, № 1. Bakı, 2010, s.103-106.
13. Правовые аспекты возмещения ущерба Азербайджану в результате агрессии со стороны Армении // "Dirçəliş XXI əsr" jurnalı, 149-150. Bakı, 2010, s. 174-185.

14. Актуальные биоэтические проблемы // “Dirçəliş XXI əsr” jurnalı, 149-150. Bakı, 2010, s. 201-218.
15. Права человека в медицине // “Dirçəliş XXI əsr” jurnalı, 149-150. Bakı, 2010, s. 219-231.
16. Nanobiotexnologiyalar və müasir cəmiyyət // “Dirçəliş XXI əsr” jurnalı, 143-144. Bakı, 2010, s. 116-131.
17. Yeyinti məhsulları haqqında Azərbaycan Respublikası Qanununun MDB ölkələrinin analoji qanunları ilə müqayisəli təhlili // “Dirçəliş XXI əsr” jurnalı, 143-144. Bakı, 2010, s. 190-200.
18. Nanotexnologiyanın etik məsələləri // “Dirçəliş XXI əsr” jurnalı, 151-152. Bakı, 2010, s. 260-270.
19. Трансплантология Международный опыт и этико-правовые аспекты // журнал «Право и Политология» № 15, декабрь. Тбилиси, 2010, s. 14-20.
20. Правовые Аспекты Возмещения Ущерба Азербайджану в результате агрессии со стороны Армении // журнал «Право и Политология» № 15, декабрь. Тбилиси, 2010, с. 25-30.
21. Правовые аспекты Биоэтики: Международный опыт и Азербайджан // «Право и Политология» №3(8), сентябрь. Тбилиси, 2010, с. 6-9.
22. Защита прав человека в контексте развития новейших технологий // «Право і суспільство: науковий журнал» № 3, Киев, 2010, s. 216-221.
23. Elmi əməkdaşlıq və inteqrasiya yollarında // “Nəqliyyat Hüququ” jurnalı, № 4. Bakı, 2011, s. 48-53.
24. Dini təlimlər və bioetikanın əxlaqi-hüquqi meyarları // “Tarix, İnsan və Cəmiyyət”. Elmi-metodik jurnal, № 1. Bakı, 2011, s. 85-93.
25. Milli ideya: məqsəd Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirməkdir // “Nəqliyyat Hüququ” jurnalı, № 3. Bakı, 2011, s. 25-36.
26. Beynəlxalq konvensiya təcrübəsi və bioetika haqqında Azərbaycan Respublikası milli qanunvericiliyin yaradılması // “Dirçəliş XXI əsr” jurnalı, 153-154. Bakı, 2011, s. 196-207.
27. “Bioetika, Tibbi Hüquq və Yeni Texnologiyalar” // AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu. Azərbaycan Respublikasının müstəqilliyinin 20 illiyinə həsr olunmuş məqalələr toplusu. Bakı: Elm və Təhsil, 2011, s. 8-39, 90-107, 131-141, 173-186.



28. Ümummilli liderin Azərbaycanı dünyaya tanıtma kursu və Heydər Əliyev Fondu // “Dirçəliş XXI əsr” jurnalı, 168. Xüsusi buraxılış. Bakı, 2012, s. 95-104.
29. Права человека в медицине: право на информированное согласие пациента // “Dirçəliş XXI əsr” jurnalı, 166-167. Bakı, 2012, s. 226-235.
30. Müstəqillik illərində Azərbaycanda İnsan Hüquqlarının inkişafı // Müstəqil Azərbaycan 20 il. Dövlət Ailə, Qadın və Uşaq siyasəti. Bakı: Nurlar, 2012.
31. İnsan Hüquqlarının müdafiəsi üzrə milli fəaliyyət planı dövlətin bu sahəyə diqqətinin göstəricisidir // “Nəqliyyat hüququ” jurnalı. Bakı, 2013, s. 51-58.
32. Международная правовая защита медицинских прав ребенка и проблемы биоэтики // журнал «Держава и право». Киев, выпуск 58, 2012, s. 594-599.
33. Формирование национального законодательства АР о биоэтике и международная конвенционная практика // «Юридический Весник». Киев, № 1(26), 2013, s. 65-70.
34. Формирование национального законодательства АР о биоэтике и международная конвенционная практика // «Право и Суспильство». Киев, № 3, 2013, s. 64-69.
35. Ethnic and Religious roots of regional conflicts in the Caucasus // «Contemporary International Relations». № 1, January/February. 2012.

**Konfrans materialları:**

36. Legal aspects of Bioethical Norms / “World Congress on Medical Law”. Zagreb, Croatia, 8-12 August, 2010, p. 156.
37. How Genetically Modified Products are Reflected in Food Legislation of Different CIS countries / “World Congress on Medical Law”. Zagreb, Croatia, 8-12 August, 2010, p. 142-143.
38. Patient Rights in the Health System of Azerbaijan / “10th Indo-Pacific Congress on Legal Medicine and Forensic Science”. 25th-30th October, 2010, s. 149.
39. Teaching Legal Aspects of Bioethical Norms in High Education System of Azerbaijan / “UNESCO Chair in Bioethics. International Conference on Bioethics Education: Contents, Methods, Trends”. Canaan Spa, Zefat, Israel, May 2-5, 2010, s. 66-67.

40. Organ Transplantation: Its legislative Bases in Azerbaijan / “American College of Legal Medicine”, 51st Annual Meeting, February 24-27, 2011, Las Vegas, Nevada, s. 90-91.
41. Conventionl International Practice and the Formation of National Legislation for the Azerbaijan Republic / “American College of Legal Medicine”, 51st Annual Meeting, February 24-27, 2011, Las Vegas, Nevada, s. 86-87.
42. The Correct Attitude toward Genetically Modified Products is one of the Startegic Components of Food Security / “American College of Legal Medicine”, 51st Annual Meeting, February 24-27, 2011, Las Vegas, Nevada, s. 88-89.
43. The Legislation of CIS countries on the issue of genetically modified products / “Medicine and Law. World Association for medical Law”. Theme Issue. Volume 30, Number 4. December, 2011.
44. Strengthening the Legal Profession and Access to Justice in Azerbaijan / “Rule of Law and Development”. Beijing. 2012.
45. History of Development of Concepts of Human Rights and Rights of Child / “Rule of Law and Development”. Beijing, 2012, p. 284-285.
46. Legal Responsibility for Violations of Law by Medical Workers in Azerbaijan / “American College of Legal Medicine”, 53rd Annual Meeting, February 21-24, 2013, Las Vegas, Nevada, p. 66-67.
47. UNESCO Bioethics Teachers Training in Azerbaijan // “Medicine and Law. World Association for medical Law”. Volume 4, Issue 16. January-March, 2013, p. 3.
48. Ermәni etnokorporasiyaları vә siyasilәşdirilmiş miflәr / AMEA-nın İnsan Hüquqları İnstitutunda “Ermәnilik: mif vә gerçәkliklәr” mövzusunda keçirilmiş elmi-praktiki konfransda çıxış. “Dirçәliş XXI әsr” jurnalı, 133-134. Bakı, 2009, s. 148-152.
49. Әn yeni texnologiyalar vә insan hüquqlarına tәhdid / “Heydәr Әliyev vә Azәrbaycan Respublikasının beynәlxalq әmәkdaşlıq siyasәtinin әsas inkişaf tendensiyaları” mövzusunda elmi-praktiki konfrans materialları. Bakı, 06-07 may, 2010, s. 17-20.
50. MDB vә Qәrb ölkәlәrinin Konstitusiyalarında Sağlamlığın qorunması hüququ / “Hüquq elminin müasir problemlәri” mövzusunda Azәrbaycan xalqının ümummilli lideri Heydәr Әliyevin 90-illik yubileyinә hәsr olunmuş III Respublika elmi-nәzәri konfrans. Bakı, 2013, s. 32.



51. Этико-правовые и религиозные нормы проблем искусственного оплодотворения // Azәrbaycan xalqının ümummilli lideri Heydәr Әliyevin 90-illik yubileyinә hәsr olunmuş “Hüquq elminin müasir problemlәri” mövzusunda III Respublika elmi-nәzәri konfransının materialları. Bakı, 2013.

**А.И.Мустафаева**

## БИОЭТИКА И ПРАВА ЧЕЛОВЕКА: ТЕОРИТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ

## РЕЗЮМЕ

Диссертационная работа на тему «Биоэтика и права человека: теоретические и практические проблемы», представленная Мустафаевой Айтен Инглаб гызы на соискание ученой степени доктора юридических наук по специальности 5603.01 – «Международное право; права человека», является самостоятельной, творческой и завершенной научно-исследовательской работой, отражающей совершенно новое научное направление, что делает ее очень важной и значительной как для мировой практики, так и для Азербайджана. Диссертационная работа посвящена анализу теоретических и практических проблем биоэтики и прав человека.

Целью настоящего диссертационного исследования являются научные разработки проблем, связанных с взаимодействием международного, конституционного, уголовного права и биоэтики, а также подготовка рекомендаций по совершенствованию национального законодательства Азербайджанской Республики. Объектом исследования являются биоэтические и правовые проблемы применения современных научных технологий, создающих угрозу правам человека на жизнь и здоровье. Предметами исследования являются положения международно-правовых актов и конституционного законодательства Азербайджанской Респуб¬ли¬ки и других государств, национального и зарубежного законодательства в области здравоохранения. Научная новизна настоящего диссертационного исследования состоит в том, что она представляет собой по существу первое в Азербайджанской Республике комплексное монографическое исследо¬вание по правовой оценке актуальных биоэтических проблем в контексте прав человека. В работе реализован новый – биоэтический подход к формированию

стандартов и норм в области прав человека в национальном законодательстве.

Диссертация состоит из введения, трех глав, объединяющих 13 параграфов, заключения и списка использованной литературы.

Во Введении обоснована актуальность темы исследования, указывается степень разработанности, научная новизна темы исследования, приводятся новые положения выносимые на защиту, цели и задачи, теоретическое и практическое значение исследования.

Первая глава диссертационного исследования называется **«Биоэтика как средство регулирования общественных отношений и роль международного права в формировании биоэтических стандартов».** В этой главе дано юридическое определение биоэтики по отношению к другим социальным категориям, разъяснены международно-правовые и национально-правовые принципы и нормы биоэтики. Были затронуты международно-правовые нормы в области здравоохранения и биомедицины, их реализация в конституциях современных государств, а также проблемы использования опыта международных конвенций в Азербайджанской Республике.

Вторая глава диссертационного исследования называется **«Право на жизнь и здоровье как основа биоэтики и естественного права человека»**. В данной главе исследуются права человека и личности в современном международном праве, особенности принятых международных конвенций в области биоэтики в контексте защиты прав человека, затронуто международно-правовое определение права на жизнь, проанализированы особенности международно-правовых стандартов смертной казни и ее ликвидации, детально изучены соотношения международно-правовых и национальных норм в области права на охрану здоровья, подробно проанализированы медицинские права детей, а также даны сведения об особенностях евгеники (улучшения человеческого рода) и экспериментах, проведенных в этой области.

Третья глава диссертационного исследования называется **«Значение правовых норм относительно урегулирования актуальных проблем биоэтики».** В этой главе отражены международно-правовые вопросы взаимодействия биоэтики и биобезопасности, международно-правовые биоэтические проблемы генной инженерии человека, оценка уголовно-правовых задач за нарушения прав человека по биоэтике и определение ответственности,



а также международно-правовые нормы борьбы со СПИДом, как проблема биоэтики.

В Заключении диссертационного исследования приведены важнейшие предложения и выводы автора, полученные в результате проведенного исследования, отмечена их теоретическая и практическая значимость с точки зрения системы международного и внутригосударственного нормативного права.

A.I.Mustafayeva

## BIOETHICS AND HUMAN RIGHTS: THEORETICAL AND PRACTICAL PROBLEMS

## SUMMARY

Ayten Inglab Mustafayeva's dissertation work on "Bioethics and Human Rights: Theoretical and practical problems", for obtaing the degree of Doctor of Juridical Sciences in specialization 5603.01 - "International Law; human rights", is independent, creative and completed research work that reflects an entirely new scientific field, which makes it a very important and significant for the world's practice, and for Azerbaijan. Dissertation work dedicated on an analysis of the theoretical and practical problems of bioethics and human rights issues.

The goals of this dissertation research are scientific development of the problems related to the interaction of international, constitutional, criminal law and bioethics, to prepare recommendations for improvement of the national legislation of Azerbaijan Republic. Objects of study are the bioethical and legal problems of application of modern scientific technology, creating a threat to human rights to life and health. Subjects of study are the provisions of international legal instruments and the constitutional legislation of the Azerbaijan Republic and other countries, national and international legislation in the field of healthcare. Scientific novelty of this dissertation research is that it is essentially the first in Azerbaijan comprehensive monographic study on the legal assessment of current bioethical issues in the context of human rights. A new bioethical approach to form standards and norms of human rights in national legislation has been explored in dissertation.

Dissertation work consists of introduction, three chapters including 13 paragraphs, conclusion and the bibliography.

In the Introduction have been considered the urgency of the research topic, indicates the degree of elaboration of scientific novelty of

the research, contains new provisions submitted to defense, aims and goals, theoretical and practical significance of the study.

The first chapter is titled **«Bioethics as a means of regulating social relations and role of international law in forming bioethical standards»**. The following issues have been given in the first chapter: a legal definition of bioethics in relation to other social categories, explained international law and national legal principles and norms of bioethics, and also discussed international legal norms in the field of healthcare and biomedicine and their implementation to the constitutions of modern states, problems of the using experience of international conventions in the Azerbaijan Republic.

The second chapter is titled **"Right to life and health as the basis of bioethics and natural human right"**This chapter explores human rights and identity in contemporary international law, especially international conventions adopted in the field of bioethics in the context of human rights affected by the international legal definition of the right to life, especially analyzed international legal standards for the death penalty and its abolition, studied in detail the ratio of international and national legal standards on the right to health protection, analyzed in detail the medical rights of children, as well as provides information about the features of eugenics (improvement of the human race ), and the experiments conducted in this area.

The third chapter is titled **"Meaning of legal norms concerning the settlement of urgent problems in bioethics".** This chapter reflects the international legal issues of interaction between bioethics and biosafety, international legal bioethical issues of human genetic engineering, assessment of criminal legal issues for violations of human rights on bioethics determination of responsibility, as well as international legal norms of the fight against AIDS as a problem of bioethics.

The Conclusion dissertation research shows important proposals and conclusions of the author, noted their theoretical and practical significance in terms of international and domestic regulatory law.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***на правах рукописи***

**АЙТЕН ИНГЛАБ ГЫЗЫ МУСТАФАЕВА**

# БИОЭТИКА И ПРАВА ЧЕЛОВЕКА: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ

**Специальность: 5603.01 – «Международное право; права человека»**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора юридических наук**

**БАКУ 2014**